

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

21 avqust 2026-cı il, cümə
№ 149 (7216)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Azərbaycanın yeni Cənubi Qafqaz modeli

## Sülh, əməkdaşlıq və inkişaf üzərində qurulan post-müharibə nizamı




Bax səh. 2

## Cənubi Qafqaz SÜLHə yaxınlaşır...

Bax səh. 3

## Hökumət yenilənmiş iqtisadi göstəriciləri açıqlayıb

Maliyyə Nazirliyi 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozları açıqlayıb. Proqnozlara əsasən, dünya iqtisadiyyatında baş verən fraqmentasiyalar Azərbaycana da öz təsirlərini göstərir və göstərməkdə davam edəcək. Belə ki, Yaxın Şərq regionunda davam edən geosiyasi gərginliklər fonunda enerji qiymətlərinin yüksəlməsi, inflyasiya təzyiqlərinin artması və monetar sərtləşmə gözləntilərinin yaranmasına səbəb olub. Bu fonda, cari il üzrə qlobal iqtisadi artım proqnozları aparıcı beynəlxalq maliyyə təşkilatları tərəfindən yenidən nəzərdən keçirilir ki, həmin rəqəmlərin Azərbaycanla da bilavasitə bağlılığı vardır. Beynəlxalq Valyuta Fondu (BVF) cari ilin iyul ayında verdiyi son proqnozda qlobal iqtisadi artım tempini aprel ayı ilə müqayisədə 0,1 faiz bənd azaldaraq 3 faiz səviyyəsində müəyyən edib. Dünya Bankı (DB) da 2026-cı ilin iyun ayında qlobal iqtisadi artım üzrə əvvəlki proqnozu 0,1 faiz bənd azaldaraq 2,5 faiz səviyyəsində qiymətləndirib. Beynəlxalq maliyyə institutları və agentliklərinin son proqnozlarına əsasən, xam neftin bir barelinin orta illik satış qiymətinin 82-94 dollar civarında olacağı proqnozlaşdırılır.

Bütün bu ssenarilər fonunda Azərbaycanda da iqtisadi artımın orta göstərici əsasında dövr edəcəyi gözlənilir. Qeyd olunan qlobal və regional iqtisadi reallıqlar...

Bax səh. 4

## Dünya üçün bərpa olunan enerji dövrü



Bax səh. 5

## Bakıda Belçika müstəmləkəçiliyinə həsr olunan beynəlxalq konfrans keçiriləcək

Bax səh. 3

## Fransada keçirilən qəribə festival

Bax səh. 5

## Hörmüz boğazında qeyri-müəyyənlik: Dünya bundan necə təsirlənir?

Bax səh. 7

## Transxəzər istifadəyə hazırdır

Azərbaycan və Qazaxıstan hökuməti Transxəzər Fiber-Optik Kabel Xəttinin tikintisi layihəsi çərçivəsində işləri yekunlaşdırmaq üzrədir. Hazırda layihə üzrə tikinti işləri tamamlanıb, yəni kabelin Xəzər dənizinin dibi ilə çəkilməsi artıq başa çatıb. “AzerTelecom” və “Kazakhtelecom” şirkətləri hazırda mütəxəssislərlə birgə avadanlıqların tənzimlənməsi və sazlama işlərini həyata keçirirlər. Bu, son mərhələ 2-3 aya tamamlanacaq və kabel xəttinin istismara verilməsi isə bu ilin IV rübünə planlaşdırılır. Qazaxıstanın Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyinin Telekommunikasiya Komitəsinin məlumatına görə, Transxəzər Fiber-Optik Kabel Xətti Qazaxıstan və Azərbaycan arasında əlavə beynəlxalq rəqəmsal marşrut yaradacaq. Kabel Xəttinə qoşulma məsələsi üzrə Türkmənistan və ya regionun digər dövlətləri ilə danışıqlar aparılır ki, razılaşdırmalar əldə edildikdən sonra regionda nəhəng rəqəmsal hab formalaşacaq, Avropa ilə Asiya arasında tranzit telekommunikasiya infrastrukturu təmin ediləcək. Layihə beynəlxalq rabitənin etibarlılığını artıracaq və iki ölkənin tranzit potensialını gücləndirəcək.

Region üçün strateji əhəmiyyət daşıyan Transxəzər Fiber-Optik Kabel Xətti layihəsi Sumqayıt və Aktau şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda kabel infrastrukturunu əhatə edir. Kabel Xətti müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan ərazilərindən keçəcək rəqəmsal...

Bax səh. 4

## İran Avropaya hücum etsə...



Bax səh. 6

## “3+1” perspektivi...



Bax səh. 6

# Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



2027-ci ilin yanvar ayında Azərbaycanın görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyi tamam olur.

Yüksək amallara və humanist ideallara sadiq əsl vətənpərvər ziyalı kimi Əziz Əliyev şərəfli bir ömür yolu keçmiş və gələcək nəsillər üçün xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, ən müxtəlif məsul vəzifələrdə çalışarkən milli təəssübkeşlik hissi ilə daim dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində olduqca səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərini nəzərə alaraq dövlət və elm xadimi, professor Əziz Əliyevin 130 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 avqust 2026-cı il**

# Azərbaycanın yeni Cənubi Qafqaz modeli

## Sülh, əməkdaşlıq və inkişaf üzərində qurulan post-müharibə nizamı




Postmüharibə dövründə Azərbaycanın həyata keçirdiyi ardıcıl və çoxşaxəli siyasət Cənubi Qafqazın yalnız siyasi xəritəsini deyil, həm də klassik regional anlayışının özünü dəyişdirir. Əvvəllər daha çox Azərbaycan, Ermənistan və Gürcüstanla məhdudlaşdırılan regional əməkdaşlıq modeli artıq daha geniş coğrafiyanı əhatə edən, iqtisadi, nəqliyyat, enerji və təhlükəsizlik əlaqələrinin bir-birini tamamladığı yeni platformaya çevrilir. Bu prosesdə Azərbaycanın təşəbbüskar mövqeyi xüsusi diqqət çəkir.

Bakı regional əməkdaşlığı yalnız diplomatik münasibətlərin inkişafı kimi deyil, sülhün, təhlükəsizliyin, iqtisadi tərəqqinin və qarşılıqlı əlaqələrin vahid sistemdə birləşdirilməsi kimi təqdim edir. 44 günlük müharibədən sonra formalaşan yeni reallıqlar Azərbaycanın qarşısında həm də regionun gələcək inkişaf arxitekturasının qurulması vəzifəsini də aktuallaşdırdı. Azərbaycan bu mərhələdə qalib tərəf kimi revanşist yanaşmaya deyil, əməkdaşlıq və inteqrasiya modelinə üstünlük verdi.

Bu yanaşmanın mühüm xüsusiyyəti regional sərhədlərin coğrafi deyil, funksional prinsiplər əsasında genişləndirilməsidir. Cənubi Qafqaz artıq Mərkəzi Asiya, Xəzər hövzəsi, Türkiyə, Qlobal Cənub və Avropa ilə sıx bağlı olan vahid geoiqtisadi məkanın mühüm həlqəsi kimi çıxış edir. Orta Dəhliz, enerji layihələri, yeni nəqliyyat bağlantıları, Şərq-Qərb və Şimal-Cənub marşrutlarının kəsişməsi Azərbaycanı bu transformasiyanın əsas mərkəzlərindən birinə çevirir.

Ən mühüm məqamlardan biri də budur ki, yeni regional modeldə subregional məkanlar artıq periferik ərazilər kimi deyil, ümumi təhlükəsizlik və iqtisadi sisteminin ayrılmaz hissələri kimi nəzərdən keçirilir. Naxçıvanın nəqliyyat və geosiyasi əhəmiyyətinin artması, Zəngəzur istiqamətində kommunikasiyaların açılması perspektivi, Xəzər üzərindən Mərkəzi Asiya ilə əlaqələrin dərinləşməsi bu yanaşmanın konkret nümunələridir.

Beləliklə, Bakı klassik Cənubi Qafqaz anlayışının çərçivələrini genişləndirərək onu Avrasiyanın daha böyük inteqrasiya proseslərinə bağlayır. Azərbaycanın təşəbbüsləri göstərir ki, yeni regional düzənin əsas dayaqları artıq yalnız siyasi razılaşmalar deyil, sülh, təhlükəsizlik, bağlantı, enerji, ticarət və qarşılıqlı iqtisadi maraqlardır. Məhz bu baxımdan Azərbaycanın postmüharibə mərhələsində regionun iştirakçısından daha çox, yeni regional arxitekturanın formalaşmasına təsir edən əsas aktorlardan biri kimi çıxış edir. Son 8 ayda Bakıdan səslənən mesajlar, irəli sürülən prioritetlər və təqdim olunan perspektiv layihələr bunu sübut edir.

### Azərbaycanın regional siyasəti Cənubi Qafqazın "pasportunu" dəyişdi

Təbii ki, məsələyə ilk növbədə klassik Cənubi Qafqaz modeli üzərindən yanaşmaq lazımdır. 30 il ərzində davam edən erməni işğalı, Cənubi Qafqazın qeyri-stabil siyasi-hərbi durumu bölgənin iqtisadi potensialının tam açılmasına mane oldu. Düzdür, Azərbaycanın yürütdüyü praqmatik siyasət müəyyən mənada bu situasiyanı dəyişə bildi - Azərbaycan ilə Gürcüstan arasındakı müsbət siyasi dialoq mühiti, iqtisadi əlaqələrin davamlılığı, inteqrasiya prosesindəki koordinasiya regionun logistik, geostrateji, geocoğrafi üstünlüklərinin təqdimatına imkan yaratdı. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn "Əsrin müqaviləsi" layihəsi Cənubi Qafqazın qlobal sistem üçün əhəmiyyətini ön plana çıxardı. Ard-arda reallaşan Bakı -Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji xətləri, Bakı-Tbilisi-Qars dəmir yolu Cənubi Qafqazın "pasport tədqimatı"na çevrildi.

İndiki halda isə, yaranmış yeni geosiyasi reallıq regionda köhnə qarşıdurma xəttini aradan qaldıraraq əməkdaşlıq və tərəfdaşlıq üçün real zəmin formalaşdırıb - bu isə regional inkişaf strategiyasının artıq 3 dövlət tərəfindən də qəbul edildiyini ortaya qoyur. Bakının təhlükəsizliyin yalnız hərbi güc üzərindən deyil, qarşılıqlı iqtisadi əlaqələr, nəqliyyat-kommunikasiya bağlantıları və siyasi dialoq vasitəsilə möhkəmləndirilməsini prioritet elan etməsi, yəni, sülh təşəbbüsləri vasitəsilə Cənubi Qafqaza yeni bir gələcək vədi yeni bir situasiya formalaşdırıb. Azərbaycanın təqdim etdiyi yeni nizam modeli qarşıdurma və təcrid siyasətinə alternativ olaraq bərabərhüquqlu əməkdaşlıq prinsipinə əsaslanır. Bu yanaşma region dövlətlərinin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və iqtisadi inteqrasiyanın təşviqini özündə ehtiva edir. Bu ilin aprelin 6-da Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini: "Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir".

### 1 nömrəli məsələ - qarşıdurma xətti əməkdaşlıq xəttinə çevrildi

Qeyd edildiyi kimi, Azərbaycanın son 6 ildə apardığı uğurlu siyasi kurs ənənəvi region anlayışının sərhədlərini genişləndirib. Türkiyə ilə müttəfiqlik bəyannaməsinin imzalanması, Mərkəzi Asiya Məşvərət Məclisinə üzv seçilməmiz, hətta Çin ilə hərtərəfli strateji əlaqələr formalaşdırmamız ölkəmizi Şərq-Qərb strukturlaşmasının mərkəz nöqtəsi etməklə yanaşı, Bakının ətrafında qlobal bir platforma yaradıb. Bu formatın gələcək perspektivi isə yeni regional subyektdə təhlükəsizlik anlayışının oturuşdurulmasıdır. Bakının son 6 ildə yaratdığı siyasi mənzərə özündə mühüm komponentləri birləşdirir - regional baxımdan Cənubi Qafqazda, ümumən geosiyasi baxımdan Avrasiyada yeni bir nizamın şərtləri və gündəmi müəyyənləşib. Qeyd edildiyi kimi, ölkəmiz təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında sülhün və sabitliyin təmin olunmasına töhfə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diplomatiya, beynəlxalq tərəfdaşlıq platformaları və təhlükəsizlik təşəbbüsləri Azərbaycanın bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Azərbaycanın həyata keçirdiyi siyasətin yalnız regional deyil, bütövlükdə Avrasiya miqyasında üçün təhlükəsizlik indeksinin artırılmasına yönəlməsi ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunu və strateji əhəmiyyətini təsdiqləyir. Bakı platforması beynəlxalq miqyasda sülhün qorunması, risklərin azaldılması və gələcək təhlükəsizlik modelinin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir.

Azərbaycan nümunəsində Cənubi Qafqazda artıq müharibə riski aradan qaldırılıb - separatizm məhv edilib. Ən əsası, Ermənistanın destruktiv siyasətdən uzaqlaşması üçün real mexanizm formalaşdırılıb. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi paralel inkişaf trayektoriyasınea əsaslanır - biz sülh üçün beynəlxalq hüquq çərçivəsində mübarizəmizi ortaya qoyaraq, həm də digər vasitələri diqqətdə saxlayırıq. Prezident İlham Əliyev bu ilin martında Bakıda keçirilən "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda bildirdi ki, Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub.

### Xəzərin iki sahili vahid geosiyasi və geoiqtisadi məkana çevrilir

Azərbaycanın yeni nizamda aparıcı prioritetlərindən biri şərq istiqamətli əməkdaşlıq mühitini daha da gücləndirmək olub. Ötən ilin noyabrından etibarən instusional məzmun qazanan Azərbaycan-Mərkəzi Asiya əlaqələri Bakı üçün iqtisadi-siyasi region diapazonunu genişləndirir. Prezident İlham Əliyev bu ilin iyulunda Çolpon-Ata şəhərində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə bildirdi ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir.

Vurğulandığı kimi, rəsmi Bakının apardığı çoxvektorlu siyasət, enerji və nəqliyyat diplomatiyası, regional platformaların qurucusu kimi oynadığı rol geniş bir coğrafiyada yeni situasiya formalaşdırıb. Bu gün Bakı müstəqil strateji xəttə sahib dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya - Cənubi Qafqaz inteqrasiyasının mərkəzi sütunudur - başqa sözlə, Xəzərin iki sahili arasında zaman-zaman mövcud olan siyasi əlaqələr bu gün tamamilə yeni inkişaf məcrasına keçib və qarşılıqlı fəaliyyətin səviyyəsi tarixi maksimum həddə çatıb. Bu və digər komponentlər isə bütövlükdə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının artıq bir çox aspektlərdə vahid orqanizm kimi çıxış etməsini şərtləndirir. Prezident İlham Əliyev bu faktı fenomenal şəkildə izah etdi: "Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib".

Beləliklə, regionlararası proseslərin koordinasiyası, iqtisadi və investisiya layihələrinin uzlaşdırılması, enerji və nəqliyyat strategiyalarının sinxronlaşdırılması Azərbaycan - Mərkəzi Asiya əlaqələrini yeni bir müstəviyə daşıyır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla əməkdaşlığı yüksək səviyyədə qəbul etməsi və bu inteqrasiya formatının rəsmən dəstəkləməsi isə yaranan mənzərəni tam təsdiqləyir.

Artıq Azərbaycan yalnız Mərkəzi Asiya ilə əməkdaşlıq edən tərəfdaş deyil - həmin formatın tamhüquqlu üzvü, regional qərarların formalaşmasında aparıcı iştirakçı, yeni Avrasiya nizamının arxitekturasını quran əsas ölkələrdən biridir. Mərkəzi Asiya - Cənubi Qafqaz regional birliyinin əsasında duran amillərə gəldikdə isə:

- Azərbaycanın sabit, proqnozlaşdırıla bilən və uzunmüddətli regional siyasəti;

**Azərbaycanın təqdim etdiyi yeni nizam modeli qarşıdurma və təcrid siyasətinə alternativ olaraq bərabərhüquqlu əməkdaşlıq prinsipinə əsaslanır. Bu yanaşma region dövlətlərinin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və iqtisadi inteqrasiyanın təşviqini özündə ehtiva edir**

- Azərbaycanın həm türk dünyasının inteqrasiyasında aparıcı rola malik olması, həm də eyni zamanda Avropa və Qərb bazarlarına çıxış imkanlarını açan ölkə olması;
- Azərbaycanın yeni nizamın aparıcı aktoru kimi çıxış etməsi;
- Azərbaycanın həm regional, həm də qlobal miqyasda sabitləşdirici faktor kimi özünü təsdiqləməsi burada əsas əhəmiyyət daşıyır. Bəli, Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan həm Şərqə, həm Qərbə, həm də Cənubi Qafqaza açılan qapıdır. Bu gün Mərkəzi Asiyada Azərbaycan faktoru ikiqat dəyər daşıyır: həm iqtisadi, həm siyasi. Bakı həm enerji təhlükəsizliyinin təmin edilməsində, həm nəqliyyat dəhlizlərinin şaxələnməsində, həm də regional sabitliyin qorunmasında real rol oynayır.

### Yeni Cənubi Qafqazın üç dayağı: sabitlik, inteqrasiya və etimad...

Beləliklə, Azərbaycanın təqdim etdiyi yeni nizam modeli, yeni regional əlaqələndirmə anlayışı qarşıdurma və təcrid siyasətinə alternativ olaraq bərabərhüquqlu əməkdaşlıq prinsipinə əsaslanır. Bu yanaşma region dövlətlərinin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və iqtisadi inteqrasiyanın təşviqini özündə ehtiva edir. Müharibədən sonrakı dövrdə rəsmi Bakı revanşist ritorikadan uzaq dayanaraq sülh gündəliyini ön plana çıxardı. Bu isə Cənubi Qafqazda uzunmüddətli sabitliyin əsas şərti kimi qiymətləndirilir. Prezident İlham Əliyev bu ilin yanvarında Davosda "Euronews" televiziyasına müsahibəsində bildirmişdi: "Bizim üçün regionda sabitlik, proqnozlaşdırılma və sülh ən böyük sərvətdir. Biz işğaldan və müharibədən əziyyət çəkmişik, minlərlə qurban vermişik. Bu gün sülhün və sabitliyin olması istənilən ölkə üçün uğur qazanmağın yeganə yoludur... Ümid edirəm ki, hər bir ölkə regional sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcəkdir".

Regionun bu günkü mənzərəsi aydın şəkildə göstərir ki, sülh, əməkdaşlıq və qarşılıqlı münasibətlər sisteminə yeni baxış Cənubi Qafqaz siyasətinin yeni normasıdır. Azərbaycan bölgədə sabitlik yaradan lider dövlət kimi çıxış edir və bu, uzunmüddətli inkişafın təminatıdır. Hər üç bölgə dövləti:

- Qlobal əməkdaşlıq prosesinin sürətli inkişafından;
- Azərbaycanın sayəsində əldə edilmiş təhlükəsizlik indeksi üzərindən Cənubi Qafqazın iqtisadi-ticari çəkisinin artmasından;
- 4 cəhət üzrə intqerasiya imkanlarının genişlənməsindən razıdır. Çünki Bakının yaratdığı yeni reallıqlar Cənubi Qafqazın gələcəyi üçün üç əsas istiqamət müəyyənləşdirib:
- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;
- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;
- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti.

Azərbaycanın təşəbbüsü ilə formalaşan bu reallıq Cənubi Qafqazı qarşıdurma bölgəsindən inkişaf məkanına çevirir. Bakı diplomatiyasının məzmunu "qalib tərəf" deyil, "tərəfdaş region" fəlsəfəsinə əsaslanır. Azərbaycanın rəhbərliyi ilə formalaşan yeni Cənubi Qafqaz modeli həm iqtisadi inteqrasiyanı, həm də siyasi sabitliyi təmin edən mühüm mərhələdir. Bu modelin mərkəzində "sülh naminə əməkdaşlıq" prinsipi dayanır. Bakı bölgədəki bütün dövlətlər üçün ortaq iqtisadi, siyasti, ticari və humanitar birlik formatı - dolayısı ilə yeni Cənubi Qafqaz qurur. Son dövrlərdə Ermənistan ilə neft məhsulları ticarətinin formalaşdırılması, ərazimizdən Ermənistan yüklərinin keçidinə icazələrin verilməsi bu prinsipdən qaynaqlanır. Geostrateji coğrafi məkanın daha da inkişaf etməsi üçün sabitlik, bərabərlik və qarşılıqlı etimad ən vacib ştrixlərdir. Azərbaycanın diplomatik uzaqgörənliyi və regional məsuliyyəti nəticəsində Cənubi Qafqaz artıq konfliktlər coğrafiyasından çıxaraq sülh, əməkdaşlıq və inkişafın yeni məkanı kimi tarixə daxil olur.

### Sülh Azərbaycanın yeni regional nizamının əsas kapitalıdır - TRIPP regional sülhün iqtisadi dayağına çevrilir

Ümumən regionun inkişaf düsturunun əsasında isə bir paradiqma mühüm rol oynayır - sülh. Bu, Bakının yeni nizama qazandırdığı ən böyük sərvətdir. Ötən ilin avqustun 8-də Vaşinqtonda imzalanan üçtərəfli Bəyanat, sülh sazişinin paraflanması bölgənin yeni gələcəyi üçün atılan təməldir. Azərbaycan sülhü möhkəmləndirmək üçün yeni iqtisadi alətləri də prosesə qoşub. Zəngəzur dəhlizi (TRIPP) layihəsi yeni qlobal ticari aorta olmaqla yanaşı regional sülhün möhkəmlənməsinə, əbədi sabitliyin yaranmasına da öz töhfəsini verəcək. Zəngəzur dəhlizi layihəsi iqtisadi imkanları yenilənməklə yanaşı, Çin-Avropa marşrutu üzrə Cənubi Qafqaz təhlükəsizlik arxitekturasına da qarant formalaşdırır. Yeni nizamın tərəfdaşları olmaqla Çin, Mərkəfzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa kontingenti bütövlükdə bu sülh arxitekturasının da tərəflərinə çevrilir. Prezident İlham Əliyev bu ilin fevralında ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində mətbuata bəyanatında bildirib ki, ticarətin və əməkdaşlığın başlanğıcı reallaşır: "Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu - TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir. Beləliklə, regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir". Dövlət başçısı qeyd edib ki, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq.

Bakı hər zaman bölgədə sabitlik və təhlükəsizlik üçün maksimum imkanlar formalaşdırır. Kommunikasiyaların bərpası Avrasiya məkanında ticarət əlaqələrinin daha da genişlənməsinə töhfə verə bilər. Bu baxımdan Zəngəzur dəhlizi Cənubi Qafqazın uzunmüddətli inkişaf strategiyası olmaqla yanaşı, kontingentlərarası münasibətlər sisteminin formalaşmasına da əsaslı imkan deməkdir.

*Pərviz SADAYOĞLU*

## Siyasi qarşıdurmalar da istisna olunmur

# Cənubi Qafqaz SÜLHə yaxınlaşır...

## İrəvan konstitusiya dəyişikliyinə gedir

Bu günlərdə Ermənistandan ölkə konstitusiyasının dəyişdirilməsi ilə bağlı yeni xəbərlər gəlib. Belə ki, Ermənistan parlamentinin iclasında hakim “Mülki müqavilə” partiyasının deputatı Arusyak Culakyan müxalifətçi “Ermənistan” blokunun parlament fraksiyasının rəhbəri Anna Qriqoryanın suallarını cavablandırarkən yeni konstitusiya layihəsinin hazırlanması ilə bağlı açıqlamalar verib. Yeni konstitusiya layihəsinin nə vaxt dərc olunacağı barədə sualı cavablandırarkən deputat bildirib ki, sənədlə bağlı əlavə müzakirələrə, o cümlədən hakim komandanın daxilində müzakirələrə hələ də ehtiyac var. Bununla belə, Culakyan layihənin mətninin cari ilin sonunadək dərc edilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

### Konstitusiya dəyişikliyi sülh prosesinin təşəbbüskarı olan Azərbaycanın əsas tələbidir

Hazırda Cənubi Qafqaz heç vaxt olmadığı qədər sülhə yaxındır. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Amerika Birləşmiş Ştatları (ABŞ) və Ermənistan liderlərinin iştirakı ilə iki ölkənin xarici işlər nazirləri tərəfindən yekun sülh sazişi paraflanıb. Bundan sonra ötən bir ildə region real sülh şəraitində yaşayıb. Azərbaycanla Ermənistan arasında postmüharibə mərhələsində başlayan tənzimləmə prosesində müsbət dinamika izlənilib. Xüsusilə də qalib Azərbaycan sülh prosesinə təkan vermək məqsədilə öz ərzisindən Ermənistana tranzit yüklərin keçidinə icazə verib. Həmçinin respublikamızdan Ermənistana strateji əhəmiyyətli enerji məhsullarının ixracına başlanıb. Eləcə də iki ölkənin vətəndaş cəmiyyətləri təmsilçilərinin “Sülh körpüsü” platforması çərçivəsində İrəvanda və Bakıda bir neçə görüşü baş tutub.

Bu kimi müsbət reallıqlar fonunda sual yaranır: Bəs yekun sülh sazişi niyə imzalanmır və yaxud nə vaxt imzalanacaq? Ictimaiyyətdə belə bir suala cavab axtarılması tam təbiidir. Yada salaq ki, məğlub Ermənistan 2020-ci il 10 noyabr tarixində müharibə başa çatandan sonra xarici havadarlarının diktəsi ilə Azərbaycanın sülh təşəbbüslərini müxtəlif manipulyasiyalara əl atmaqla təxminən 5 il yubadıb. Nəhayət, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə sülh prosesində yeni mərhələ açıldı. Cəmiyyətimizdə narahatlıq var ki, Ermənistan bu dəfə də yekun sülh sazişinin imzalanmasını hansı yollarlasa uzada bilər.

Əslində, bu dəfə Ermənistanın sülh prosesini yubadacağı ehtimalı yüksək deyil. Bunu həm beynəlxalq vəziyyət, regionda yaranmış reallıqlar, həm də Ermənistanın bir sıra mühüm çağırışlarla üz-üz qalması şərtləndirir. Əvvəla, xüsusi olaraq vurğulayaq ki, Vaşinqton görüşündən sonra dünyanın supergüc dövləti olan ABŞ bir növ sülh prosesinin qarantı qismində çıxış edir. Vaşinqtonda yekun sülh sazişinin paraflanması o anlama gəlir ki, ABŞ Azərbaycanın sülh gündəliyini dəstəkləyir. Ermənistanın siyasi rəhbərliyinin Ağ Evin iradəsinə qarşı hansısa bir addım ata biləcəyi mümkün görünmür.

Digər tərəfdən, Vaşinqtonda birgə siyasi bəyanat verilib və kommunikasiyaların blokdan çıxarılması razılaşdırılıb. Hazırda Ağ Evdə razılaşdırılan TRIPP layihəsinin (Zəngəzur dəhlizinin) reallaşdırılması istiqamətində işlər görülür. Bu kimi reallıqlar fonunda sülh prosesinin hansısa bir bəhanə ilə ləngidilməsi Ermənistan üçün ciddi təzyiqləri qaçılmaz edər.

Yekun sülh sazişinin imzalanmasının yeganə şərti isə Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Bu tələblə Azərbaycan çıxış edir və rəsmi Bakı bu tələbi irəli sürməkdə tam haqlıdır. Ermənistan konstitusiyasının indiki məzmunu sülh sazişinin müddəaları ilə ziddiyyət təşkil edir. Belə ki, əsas qanunun preamlula hissəsində istinad edilən Ermənistan Müstəqillik Bəyannaməsində beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınan Qarabağ hüquqi olaraq Ermənistanın tərkib hissəsi kimi qəbul edilir. Beləliklə, absurd vəziyyət yaranır. Ötən beş ildə aparılan tənzimləmə prosesinin və Vaşinqtonda imzalanan sənədin əsas qayəsini ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi təşkil edir. Paraflanan sənəddə bununla bağlı konkret müddəa öz əksini tapıb və tərəflər bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını birmənalı şəkildə və həm də konkret imza ilə təsdiqlənən bir formada bəyan ediblər. İndiki konstitusiyanın qüvvədə qalması isə faktiki olaraq Ermənistan rəhbərliyinin siyasi iradəsinin inkar edir. Yəni bir tərəfdən Baş nazir Nikol Paşinyan Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir, digər tərəfdən isə əsas qanunda bunun əksini özündə ehtiva edən müddəa var. İki ziddiyyətli məqam ortada ikən hansı məntiqlə yekun sülh sazişini imzalamaq olar? Burada məntiq görünmür, ona görə də qalıcı, əsas qanunla dəstəklənən sülh tərəfdarı olan Azərbaycan Ermənistan konstitusiyasının mütləq qaydada dəyişdirilməsi tələbini irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər edilləndən sonra artıq sülh sazişi istənilən vaxtda və istənilən məkanda imzalana bilər.



### Mövcud konstitusiyada zəruri dəyişikliklər, yoxsa yeni əsas qanun?

Son vaxtlaradək Ermənistanda referendum yolu ilə mövcud konstitusiyada zəruri dəyişikliklərin edilməsi ilə bağlı müzakirələr aparılırdı. “Mülki müqavilə” partiyasının deputatı Arusyak Culakyanın parlamentdə verdiyi açıqlama ilə isə yeni versiya da gündəmə gəlib. Söhbət Ermənistanda tamamilə yeni bir konstitusiyanın qəbul edilməsindən gedir. O, müxalifət təmsilçisinin sualını cavablandırarkən bildirib ki, konstitusiyanın mətnindən heç nə çıxarılmayıb, çünki biz yeni Konstitusiya yazırıq. “Biz qüvvədə olan konstitusiyanı götürüb oradan hansısa müddəaları çıxarmamışıq, yenilərini də əlavə etməmişik. Biz boş vərəq götürdük və onun üzərində yeni konstitusiyanın mətnini yazmağa başladıq”, - deyə Culakyan bildirib.

Eyni zamanda deputat yeni konstitusiya layihəsinin preambulasında Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadın olmadığını təsdiqləyib. “Layihədə olması nəzərdə tutulan preambulada Müstəqillik Bəyannaməsinə istinad varmı? Xeyr. Və olmamalı idi. Bu barədə nə qədər danışsanız və spekulyasiya etsəniz də, belədir”, - deyə hakim partiyanın deputatı bildirib.

### Revanşistlərin əks mövqedən çıxış etmələri suallar yaradır

Hakimiyyətin konstitusiya dəyişikliyinə gediləcəyini bəyan etməsi Ermənistanda revanşist qüvvələrin fəallığını artırıb. 7 iyun seçkilərində istəklərinə çatmayan revanşistlər indi konstitusiya islahatı ilə razılaşmamaqla Paşinyana qarşı yeni cəbhə açmağa çalışırlar. “Ermənistan Alyansı”nın deputatı Kristine Vardanyan baş nazir Nikol Paşinyanı konstitusiyanı “Əliyevin zövqünə uyğunlaşdırmaqda” ittiham edib. “Güclü Ermənistan” partiyasının lideri Narek Karapetyan isə Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasını “ölkənin doğum haqqında şəhadətnaməsinin yandırılması” adlandırıb.

Əslində, revanşistlərin konstitusiya islahatına qarşı dirəniş göstərmələri o anlama gəlir ki, Ermənistanda hələ “bəlkə də, qaytardılar” xülyası ilə yaşayan qüvvələr mövcuddur. Bu isə real olaraq müharibəyə çağırışdır və hakimiyyət bu kimi tendensiyaların qarşısını almaq üçün daha ciddi tədbirlər görməlidir.

Başqa bir sual hakim komandanın konstitusiya islahatına getməsi üçün parlamentdə konsensusa nail olmaq ehtimalının tam təmin edilməməsi ilə bağlıdır. Məlumdur ki, son seçkilərdən sonra hakim partiya parlamentdə 64 deputatla təmsil olunur. Referendum təşəbbüsünün dəstəklənməsi üçün isə 70 səs tələbi var. Belə olan halda “Vətəndaş Müqaviləsi”nin daha ən azı 6 səsə ehtiyacı yaranacaq. Buna isə yalnız parlament fraksiyalarından biri ilə razılaşma yolu ilə nail olmaq mümkündür. Hakim komandanın bunu hansı yolla bacaracağını isə zaman göstərəcək.

Hər halda, Ermənistanda yeni siyasi qarşıdurma dalğasına keçid ediləcəyi tam realdır. Ancaq kilsə də daxil olmaqla müxalifət qüvvələrinin etirazlara başlaması siyasi hakimiyyət üçün hansısa bir radikal ssenarinin işə düşəcəyi anlamına gəlmir. Çünki son seçkilər bir daha təsdiqlədi ki, bütövlükdə Ermənistan cəmiyyəti iki seçim qarşısında qaldıqda sülhü, yəni indiki hakimiyyətin mövqeyini dəstəkləyir. Xatırladaq kİ, Ermənistan parlamentində ikinci yeri 23 faiz səslə “Güclü Ermənistan”, üçüncü yeri isə 10 faizə yaxın səslə “Ermənistan” bloku tutur.

*Mübariz FEYİZLİ*

# Bakıda Belçika müstəmləkəçiliyinə həsr olunan beynəlxalq konfrans keçiriləcək




Avqustun 21-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda “Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili” mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Bakı Təşəbbüs Qrupundan AZƏRTAC-a bildirilib ki, tədbirdə Belçikanın keçmiş müstəmləkələri olan və hələ də bu ölkələrdə neokolonial təsirlərini saxladığı Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundidən, eləcə də Mərakeş və Cənubi Afrika Respublikasından, həmçinin BMT-dən rəsmi şəxslər iştirak edəcəklər.

Qonaqlar arasında Konqo Demokratik Respublikasının (KDR) ombudsmanı, Konqo Parlamentinin deputatları, Ruandanın Türkiyədəki səfiri və diplomatları, BMT ekspertləri də yer alacaqlar.

Konfransda, həmçinin beynəlxalq hüquq, tarixi ədalətin bərpası və reparasiya məsələləri üzrə ekspertlər, tədqiqatçılar, hüquq müdafiəçiləri və s. iştirak edəcəklər.

Konfrans iştirakçıları Belçikanın Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundi xalqına qarşı müstəmləkəçilik dövründə törətdiyi cinayətlərə görə rəsmi üzr istənilməsi və təzminat ödənməsi məsələsinin BMT, o cümlədən İnsan Hüquqları Şurasının gündəliyində irəlilədilməsi, BMT Baş Assambleyasının 60/147 saylı Qətnaməsində təsbit olunan prinsiplərə uyğun olaraq Belçikanın reparasiya və restitusiya öhdəliklərinin icrasına nəzarət edəcək beynəlxalq məcburedici mexanizmin işlənib hazırlanmasını müzakirə edəcəklər.

Tədbirdə, həmçinin Belçikanın müstəmləkə arxivlərinə tam və maneəsiz çıxışın təmin edilməsi, keçmiş müstəmləkə ərazilərindən olan mütəxəssislərin beynəlxalq ekspertlərlə bərabər proseslərə cəlb olunması, insan qalıqları və digər tarixi materialların mənşə ölkələrinə qaytarılması məsələləri diqqət mərkəzində olacaq.

Qeyd edək ki, BMT Baş Assambleyasının 60/147 saylı Qətnaməsi qurbanların hüquqi müdafiə və reparasiya hüququnu sistemləşdirir. Qətnamədə reparasiyanın restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya (mənəvi tanınma və rəsmi üzr) və təkrar pozuntuların qarşısının alınması təminatları kimi formaları nəzərdə tutulur. Belçika bu öhdəliklərin heç birini hələ də yerinə yetirməyib. Belçika müstəmləkəçilik dövründə KDR, Ruanda və Burundidə törədilən cinayətlərə görə rəsmi dövlət səviyyəsində üzr istəməyib, rəsmilər yalnız hüquqi öhdəlik yaratmayan “dərin təəssüf” ifadəsi ilə kifayətləniblər.

Mədəni irsə aid 84 min artefakt inventarlaşdırılsa da, faktiki repatriasiya prosesi onilliklərdir ki, Belçika tərəfindən yubadılır. İnventar məlumatları ictimaiyyətdən gizli saxlanılır, iktirəfli restitusiya sazişləri isə hələ də imzalanmayıb. Konqo, Ruanda və Burundi mütəxəssisləri Belçikanın müstəmləkə dövrü arxivlərinə və sənədlərinə hələ tam çıxış əldə edə bilməyib. Ekspertlər yaranmış vəziyyəti Belçikanın öz tarixi məsuliyyətini şəffaf araşdırmaqdan boyun qaçırması kimi dəyərləndirirlər.

# “Sərhədlərarası biliklərin bağlantısı: Tədqiqat və beynəlxalq akademik əməkdaşlıq”

## Vaşinqtonda bu mövzuda konfrans keçirilib

Vaşinqtonda Corc Vaşinqton Universitetində “Sərhədlərarası biliklərin bağlantısı: Tədqiqat və beynəlxalq akademik əməkdaşlıq” mövzusunda konfrans keçirilib. Tədbir ABŞ-Azərbaycan Akademiklər Şəbəkəsi (ANA) tərəfindən təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxış edib. Komitə sədri xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb, Azərbaycan dilinin və milli kimliyin qorunmasına yönəlmiş layihələr, Azərbaycan evlərinin fəaliyyəti, diaspor təşkilatları və gənclər üçün təşkil olunan yay düşərgələri barədə məlumat verib.

Fuad Muradov akademik dairələrin Azərbaycan haqqında etibarlı və obyektiv məlumatların beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadığını vurğulayıb. O, xaricdə fəaliyyət göstərən azərbaycanlı alim və mütəxəssislərin bu istiqamətdə fəaliyyətinin əhəmiyyətini qeyd edib, həmçinin Corc Vaşinqton Universitetinin Azərbaycan universitetləri ilə əməkdaşlığını yüksək qiymətləndirib.

Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbinin qlobal təşəbbüslər üzrə dekan köməkçisi Sevinc Məmmədova açılışda çıxış edərək ölkələr arasında əlaqələrin müxtəlif aspektlərinin akademik dairələrdə müzakirəsinin əhəmiyyətindən danışıb.



Daha sonra keçirilən panel müzakirəsində Fuad Muradov, Corc Vaşinqton Universitetinin professoru Can Korman, Təhsil və İnsan İnkişafı Məktəbinin dekan əvəzi Lionel Hovard, qlobal təşəbbüslər üzrə dekan köməkçisi Sevinc Məmmədova, Corc Meyson Universitetinin siyasi elmlər üzrə tədqiqatçısı Əli Məmmədov və idman menecmenti üzrə mütəxəssis Mett Vinkler çıxış ediblər.

Paneldə Azərbaycanla ABŞ arasında akademik və elmi əməkdaşlığın genişləndirilməsi, universitetlər arasında uzunmüddətli tərəfdaşlıqların qurulması, birgə təhsil və tədqiqat proqramlarının inkişafı, insan kapitalına investisiya və bilik mübadiləsi məsələləri müzakirə olunub.

Çıxışçılar uğurlu beynəlxalq akademik əməkdaşlığın qarşılıqlı maraqlara və konkret nəticələrə əsaslanmasının vacibliyini vurğulayıblar. Azərbaycan universitetləri ilə ABŞ ali təhsil müəssisələri arasında mövcud əməkdaşlıq nümunələrinə, o cümlədən ADA Universiteti ilə Corc Vaşinqton Universiteti arasında kompüter elmləri, data analitikası, elektrik və kompüter mühəndisliyi sahələrində həyata keçirilən proqramlara toxunulub. Azərbaycanın təhsil, elm və texnologiyanın inkişafına, xüsusilə də insan kapitalının gücləndirilməsinə verdiyi önəm qeyd edilib.

Müzakirələrdə, həmçinin akademik və şəxsi əlaqələrin uzunmüddətli institusional tərəfdaşlıqların yaranmasındakı rolu, müxtəlif ölkələrin təhsil və tədqiqat təcrübələrinin bölüşdürülməsinin əhəmiyyəti, eləcə də akademik diplomatiyanın ölkələr və cəmiyyətlər arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsi diqqətə çatdırılıb.

Panel müzakirəsinin sonunda sual-cavab sessiyası keçirilib, qonaqları maraqlandıran suallar cavablandırılıb.

Tədbirin sonunda qonaqlara xatirə hədiyyələri təqdim olunub.

# Hökumət yenilənmiş iqtisadi göstəriciləri açıqlayıb

## 2026-cı ilin sonunda ÜDM-in artımı 1,7 faiz fərz olunur

Maliyyə Nazirliyi 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozları açıqlayıb. Proqnozlara əsasən, dünya iqtisadiyyatında baş verən fraqmentasiyalar Azərbaycana da öz təsirlərini göstərir və göstərməkdə davam edəcək. Belə ki, Yaxın Şərq regionunda davam edən geosiyasi gərginliklər fonunda enerji qiymətlərinin yüksəlməsi, inflyasiya təzyiqlərinin artması və monetar sərtləşmə gözləntilərinin yaranmasına səbəb olub. Bu fonda, cari il üzrə qlobal iqtisadi artım proqnozları aparıcı beynəlxalq maliyyə təşkilatları tərəfindən yenidən nəzərdən keçirilir ki, həmin rəqəmlərin Azərbaycanla da bilavasitə bağlılığı vardır. Beynəlxalq Valyuta Fondu (BVF) cari ilin iyul ayında verdiyi son proqnozda qlobal iqtisadi artım tempini aprel ayı ilə müqayisədə 0,1 faiz bənd azaldaraq 3 faiz səviyyəsində müəyyən edib. Dünya Bankı (DB) da 2026-cı ilin iyun ayında qlobal iqtisadi artım üzrə əvvəlki proqnozu 0,1 faiz bənd azaldaraq 2,5 faiz səviyyəsində qiymətləndirib. Beynəlxalq maliyyə institutları və agentliklərinin son proqnozlarına əsasən, xam neftin bir barelinin orta illik satış qiymətinin 82-94 dollar civarında olacağı proqnozlaşdırılır.

### İnflyasiya 5,7 faizə çatacaq

Bütün bu ssenarilər fonunda Azərbaycanda da iqtisadi artımın orta göstərici əsasında dövr edəcəyi gözlənilir. Qeyd olunan qlobal və regional iqtisadi reallıqlar, xüsusilə də dünya enerji, ərzaq və maliyyə bazarlarında baş verən proseslər milli iqtisadiyyata təsirsiz ötüşməyəcək. Məhz bu amillərə söykənərək İqtisadiyyat Nazirliyi tərəfindən bir sıra proqnozlar yenilənib. Belə ki, 2026-cı ilin ilk 6 ayının makrofiskal nəticələri, həmçinin qlobal miqyasda iqtisadi artımla və enerji daşıyıcılarının qiymətləri ilə bağlı gözləntilər fonunda cari ildə ölkə iqtisadiyyatı 1-2 faizlik artım tempi nümayiş etdirəcək. Proqnozlara görə, 2026-cı ilin sonunda ÜDM-in real ifadədə artımı 1,7 faiz olmaqla 138 milyard manata çatacağı fərz edilir. Qeyri-neft ÜDM-nin real ifadədə artımı 3,1 faiz olmaqla 100 milyard manata çatacağı gözlənilir. Yəni, ilin əvvəli ilə gözləntidə tikinti və turizm sektoru üzrə nəzərdə tutulandan aşağı artım templərinin fərz olunması ÜDM-




in cüzi azalmasına səbəb olacaq. Bunun nəticəsində əvvəlki proqnoza nisbətən qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempi 5 faizdən 3,1 faizə enəcəyi ehtimal olunur. Ancaq bütün bunlara baxmayaraq ölkədə ilin sonunda yaradılacaq əlavə dəyərin 74-75 faizi qeyr-neft mənbələrinin üzərində cəmləşəcək. Bu, qeyri-neft sektorunun yenə də iqtisadi-fiskal bölmələrinin əsas drayveri olacağını yəqinləşdirir.

Cari ilin ötən dövründə, yəni birinci yarımildə müşahidə edilən qlobal bazar nomenklatutrasının və əmtəə qiymətlərinin spesifikasının xüsusiyyətləri 2026-cı ilin yekununda inflyasiya amilinə də təsir göstərəcək. Yəni, ilin əvvəlində fərz edilən inflyasiya rəqəminin cüzi artıma məruz qalacağı fərz olunur. Belə ki, Mərkəzi Bankın və iqtisadi blokun tədqiqləri nəticəsində faktiki inflyasiya səviyyəsi, dünya ərzaq əmtəə və ərzaq qiymətləri və onun idxal qiymətlərinə təsiri, həmçinin tənzimlənən mal və xidmət tariflərindəki dəyişikliklər, digər amillər nəzərə alınmaqla 2026-cı ildə orta illik inflyasiya proqnozu 4,8 faizdən 5,7 faiz səviyyəsinə yüksəldilib.

### Dövlət büdcəsinin gəlirlərində artım gözlənilir

Hökumətin iqtisadi komandası ÜDM-də və digər makroiqtisadi proqnozlarda nəzərəçarpacaq dəyişikliklərin fiskal yığımlara, o cümlədən dövlət büdcəsinin gəlirlərinə də




təsir edəcəyini fərz edir. Yeni ssenariyə əsasən, 2026-cı ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 39 milyard 365 milyon manat təşkil edəcəyi gözlənilir. Büdcə gəlirlərinin 43,4 faizi və ya 17 milyard 85 milyon manatı neft-qaz sektorunun, 56,6 faizi və ya 22 milyard 280 milyon manatı isə qeyri-neft-qaz sektorunun payına düşür. İlin əvvəlində təsdiq olunmuş göstəricilərlə müqayisədə neft-qaz sektoru üzrə gəlirlərdə 650 milyon manat və 4 faiz, qeyri-neft-qaz sektoru üzrə gəlirlərdə isə 106 milyon manat və ya 0,5 faiz artım gözlənilir. Dövlət büdcəsinin gözlənilən gəlirlərinin 17 milyard 760 milyon manatı və ya 45,1 faizi vergilər və rüsumlar üzrə daxilolmaların, 6 milyard 762 milyon manatı və ya 17,2 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 12 milyard 835 milyon manatı və ya 32,6 faizi Dövlət Neft Fondunun transfertin, 1 milyard 21 milyon manatı və ya 2,6 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirlərinin, 987 milyon manatı və ya 2,5 faizi sair gəlirlərin payına düşəcək. Vergi və rüsumlar üzrə daxilolmaların məbləği cəmi 17 milyard 760 milyon manat gözlənilir ki, bu da cari ilin təsdiq olunmuş göstəricisinə nisbətən 850 milyon manat və yaxud 5 faiz çoxdur. Qeyd olunan vəsaitin 4 milyard 250 milyon manatı və ya 23,9 faizi neft-qaz sektorunun, 13 milyard 510 milyon manatı və ya 76,1 faizi isə qeyri-neft-qaz sektorunun payına dü-




şəcək. Dövlət Neft Fondundan transfert 12 milyard 835 milyon manat gözlənilir.

### Büdcə xərcləri bir çox sahələr üzrə azalacaq

Yenilənmiş proqnozlara görə, 2026-cı il dövlət büdcəsinin xərcləri 40 milyard 862,6 milyon manat səviyyəsində olacaq. Bu, təsdiq olunmuş göstəriciyə nisbətən 2 faiz azdır. Ümumilikdə, 2026-cı il gözlənilən dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 60,5 faizi həcmində və ya 24 milyard 713,1 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 488,5 milyon manat və ya 1,9 faiz az), əsaslı xərclərə ümumi xərclərin 33,5 faizi həcmində və ya 13 milyard 691,8 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 352,6 milyon manat və ya 2,5 faiz az) olacağı ehtimal edilir. Cəmi xərclərdə dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 6 faizi həcmində və ya 2 milyard 457,6 milyon manat (təsdiq olunmuş göstərici səviyyəsində) vəsait yönəldiləcək.

2026-cı ilin dövlət büdcəsində xarici dövlət borcu üzrə 1 milyard 400 milyon manat, daxili dövlət borcu üzrə isə 1 milyard 057,6 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Dövlət büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq ümumi dövlət xidmətləri əvvəlki göstərici - 5 milyard 518 milyon manata qarşı 5 milyard 462,8 milyon manat və ya 55,2 milyon manat az gözlənilir. Sosial müdafiə və sosial təminat xərcləri isə təsdiq olunmuş 4 milyard 873 milyon manata qarşı 4 milyard 824,2 milyon manat və ya 48,7 milyon manat az, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri təsdiq olunmuş 632,1 milyon manata qarşı 625,8 milyon manat və ya 6,3 milyon manat az, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq xərcləri təsdiq olunmuş 3 milyard 336,3 milyon manata qarşı 3 milyard 286,2 milyon manat və ya 50 milyon manat az nəzərdə tutulur. Müdafiə və milli təhlükəsizlik xərcləri isə təsdiq olunmuş 8 milyard 717,6 milyon manata qarşı 8 milyard 562,8 milyon manat və ya 154,7 milyon manat az, səhiyyə xərcləri təsdiq olunmuş 2 milyard 24,3 milyon manata qarşı 1 milyard 987,3 milyon manat və ya 37,1 milyon manat az, kənd təsərrüfatı xərcləri təsdiq olunmuş 1 milyard 226,5 milyon manata qarşı 1 milyard 202 milyon manat və ya 24,5 milyon manat az gözlənilir. İqtisadi fəaliyyət (dövlət əsaslı vəsait qoyuluşu, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və digər xərclər) xərclərinin təsdiq olunmuş 7 milyard 856,6 milyon manata qarşı 7 milyard 699,5 milyon manat və ya 157,1 milyon manat, təhsil xərclərinin təsdiq olunmuş 5 milyard 16,4 milyon manata qarşı 4 milyard 880,1 milyon manat və ya 136,3 milyon manat az olacağı proqnozlaşdırılır.

### Kəsir 18,8 faizdən 17,5 faizə düşəcək

Büdcə kəsirinin 2026-cı ilin sonuna 1 milyard 497,6 milyon məbləğində olacağı gözlənilir. Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait, vahid xəzinə hesabının sərbəst qalığı və məqsədli büdcə fondlarının vəsaitinin qalığı hesabına təmin edilməsi nəzərdə tutulub. Kəsir cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 1,1 faiz olacaq, eyni zamanda, icmal büdcənin qeyri-neft kəsirinin qeyri-neft ÜDM-ə nisbəti 2026-cı ilin əvvəlindəki 18,8 faiz proqnoza qarşı mövcud gözləntilər əsasında ilin sonunda 17,5 səviyyəsində olacağı gözlənilir.

*E.CƏFƏRLİ*

# Transxəzər istifadəyə hazırdır

## Fiber-Optik Kabel Xətti ilin sonunda işə düşəcək

Azərbaycan və Qazaxıstan hökuməti Transxəzər Fiber-Optik Kabel Xəttinin tikintisi layihəsi çərçivəsində işləri yekunlaşdırmaq üzrədir. Hazırda layihə üzrə tikinti işləri tamamlanıb, yəni kabelin Xəzər dənizinin dibi ilə çəkilməsi artıq başa çatıb. “AzerTelecom” və “Kazakhtelecom” şirkətləri hazırda mütəxəssislərlə birgə avadanlıqların tənzimlənməsi və sazlama işlərini həyata keçirirlər. Bu, son mərhələ 2-3 aya tamamlanacaq və kabel xəttinin istismara verilməsi isə bu ilin IV rübünə planlaşdırılır. Qazaxıstanın Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyinin Telekommunikasiya Komitəsinin məlumatına görə, Transxəzər Fiber-Optik Kabel Xətti Qazaxıstan və Azərbaycan arasında əlavə beynəlxalq rəqəmsal marşrut yaradacaq. Kabel Xəttinə qoşulma məsələsi üzrə Türkmənistan və ya regionun digər dövlətləri ilə danışıqlar aparılır ki, razılaşdırmalar əldə edildikdən sonra regionda nəhəng rəqəmsal hab formalaşacaq, Avropa ilə Asiya arasında tranzit telekommunikasiya infrastrukturu təmin ediləcək. Layihə beynəlxalq rabitənin etibarlılığını artıracaq və iki ölkənin tranzit potensialını gücləndirəcək.

### Aktaudan Sumqayıta Xəzərin dibi ilə

Region üçün strateji əhəmiyyət daşıyan Transxəzər Fiber-Optik Kabel Xətti layihəsi Sumqayıt və Aktau şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda kabel infrastrukturunu əhatə edir. Kabel Xətti müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan ərazilərindən keçəcək rəqəmsal telekommunikasiya dəhlizi olan “Rəqəmsal İpək Yolu” layihəsinin önəmli hissəsidir. Növbəti mərhələdə rəqəmsal infrastrukturun inkişafına töhfə verəcək və data mərkəzlərinin, eləcə də beynəlxalq “Big Tech” şirkətlərinin cəlb olunması nəzərdə tutulur. Bu isə nəhəng rəqəmsal infrastruktur şəbəkəsi olmaqla, məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edəcək, ən optimal və qısa marşrut olmaqla ölkələr arasında regional əməkdaşlığa və dayanıqlı inkişafa təkan verəcək. Kabel xətti ilə 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulacağı nəzərdə tutulur.

Transxəzər Fiber Optik Kabel Xətti layihəsinin Orta Dəhliz təşəbbüsünə və “Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu” (TRIPP) təşəbbüsünə daxil edilməsi də müzakirə olunur. Layihənin reallaşmasında maraqlı tərəf olan beynəlxalq şirkətlər qrupu “NEQSOL Holding”in nümayəndəsi Kirill Rubinski bildirib ki, birgə layihələrin inkişaf perspektivləri böyükdür və beynəlxalq telekommunikasiya şirkətləri bu təşəbbüsü dəstəkləyir. Belə ki, şirkətin rəhbərliyi regionda marşrutların genişləndirilməsini və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığın gücləndirilməsini müzakirə edərkən fibermarşrutun Orta Dəhlizə inteqrasiyasının vacibliyinə toxunublar.

### Yeraltı peyk rəqabəti

Hazırda süni intellektin iqtisadi sektorun və tranzitin əsas seqmentlərindən birinə çevrilməsi yerüstü rabitə xətləri ilə yanaşı, sualtı rəqəmsal tranzitin qurulmasını da aktuallaşdırıb. Hazırda dünya üzrə internet rabitəsinin 99 faizi məhz yerüstü və sualtı kabellər vasitəsilə verilir. İnternetin peyk üzərindən, yəni yerüstü kabellə verilməsi xidmətindən isə az istifadə olunur. Çünki peykdən məlumat ötürülməsi gecikmə ilə müşayiət olunur və iri həcmli məlumatların verilməsində çətinlik yaranır. Peyk üzərindən bağlantı internet rabitəsinin qurulmasının coğrafi cəhətdən çətin olduğu və mümkün olmadığı ərazilər üçün əvəzedilməz xidmətdir. Sualtı (okean və dənizaltı) magistral kabellər isə indiki şəraitdə daha dayanıqlı və əlverişlidir.



Hazırda dünyada ən müxtəlif dövlətlər və şirkətlər tərəfindən çəkilən sualtı kabel xətlərinin sayı artır, internetə olan tələbat iri internet operatorları və kontent provayderlərini qitələr arasında uzunluğu minlərlə kilometr olan infrastruktur şəbəkəsi yaratmağa sövq edir. Məsələn, “Google” şirkətinin sahibi olduğu “Curie” kabel xəttinin uzunluğu 10.476 km-dir. Kabel xətti ABŞ-ın Los-Anceles şəhərindən Panamanın Bilbao şəhəri və Çilinin Valparaiso şəhərləri arasında çəkilib. Məlumat ötürmə gücü 72 terabit/s.dır. “Facebook”, “Microsoft” və “Telxius” şirkətlərinin birgə sahib olduqları və 2018-ci ildə istismara verilmiş 6605 km uzunluğunda olan “MAREA” kabeli isə ABŞ-ın Virciniya sahilindən İspaniyanın Bilbao şəhərinə qədər uzanır. Məlumat ötürmə gücü 160 terabit/s təşkil edir. “Amazon”, “Facebook”, “NTT Communications”, “PLDT”, “PCCW Global” və “SoftBank” şirkətlərinin birgə sahibi olduqları “JUPITER” magistral kabelinin uzunluğu 14.557 km, məlumat ötürmə gücü isə 60 terabit/s təşkil edir. Həmçinin ölkələri birləşdirən qısa kabel xətləri də var. Məsələn, 2012-ci ildə istismara verilmiş, 131 km uzunluğunda olan “Celtix-Connect-1” dənizaltı kabel xətti Böyük Britaniya ilə İrlandiyanı birləşdirir.

### Avropa ilə Asiyanı birləşdirən “Rəqəmsal İpək Yolu”

Bir çox ölkələr bu cür layihələrə xüsusi önəm verir, ancaq sərmayə, texniki resurs və s. amillər buna mane olur. Transxəzər Fiber-Optik kabel xətti adlanan layihəni 2018-ci ildə Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan “AzerTelecom” şirkəti irəli sürüb. 19 mart 2019-cu ildə “Azərbaycan Hökuməti ilə Qazaxıstan Hökuməti arasında Azərbaycanın və Qazaxıstanın rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında” dövlətlərarası saziş imzalanıb və daha sonra hər iki ölkə rəhbərliyi tərəfindən təsdiq edilib.

“Azerbaijan Digital Hub” proqramı çərçivəsində icra olunan layihə iki marşrutdan-Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutlarından ibarətdir. Qlobal rəqəmsal rəqabətin dərinləşdiyi dövrdə sualtı infrastrukturun qurulması Azərbaycan və Qazaxıstanın birgə uğuru hesab edilə bilər.

Layihənin icrası ilə Azərbaycanın da adı artıq dünyada sualtı internet kabel infrastrukturuna sahib olan ölkələrin siyahısına əlavə ediləcək. Azərbaycanla Orta Asiya ölkələri (Qazaxıstan və Türkmənistan) arasında Xəzər dənizinin dibi ilə çəkiləcək Transxəzər Fiber Optik kabel xətləri təkcə Xəzərin Şərq və Qərb sahillərində yerləşən dövlətləri deyil, ümumilikdə Avropa ilə Asiyanı Azərbaycan vasitəsilə birləşdirəcək və tarixi İpək Yolunun üzərində Azərbaycan üzərindən “Rəqəmsal İpək Yolu”nu formalaşdıracaq. Bu, Asiya ökələrinin internetə artan ehtiyaclarının Azərbaycan vasitəsilə təmin edilməsinə imkan verəcək, Azərbaycanın regionun rəqəmsal mərkəzinə (Digital Hub) çevrilməsinə şərait yaradacaq.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, Xəzər dənizi ilə kabel xəttinin çəkilməsi beynəlxalq dəhlizlərə və transsərhəd məlumat axınları ilə əlaqəli rəqəmsal infrastrukturun yaradılması baxımından hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Bu layihə telekommunikasiya şəbəkələrinin və məlumat mərkəzlərinin fəal inkişafını təmin edəcək, qlobal kibertəhlükəsizlik standartlarının tətbiqinə imkan verəcək”.

Prezident İlham Əliyev də “Rəqəmsal İpək Yolu” layihəsinə xüsusi önəm veriləcəyini, onun tərkib hissəsi olan TransXəzər rabitə xəttinin, Xəzərin dibi ilə çəkiləcək fiber-optik kabel şəbəkəsinin Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsində mühüm rol oynayacağını vurğulayıb.

*E.CƏFƏRLİ*

# Dünya üçün bərpa olunan enerji dövrü

Bütün dünyada zaman ötdükcə qlobal inkişaf səvviyyəsinə və dəyişən tələblərə adekvat olaraq qarşıya yeni çağırışlar çıxır. Əsrlər boyunca insanlar enerji mənbəyi kimi əsasən neftdən, qazdan, kömürdən və digər qazıntı yanacağından istifadə ediblər. Sonrakı mərhələlərdə hidrogen və atom enerjisi kəşf olunub və geniş yayılıb. Hazırda isə dünya enerji transformasiyasının yeni mərhələsindən - bərpa olunan enerji dövründən keçməkdədir. Getdikcə daha çox ölkə daha çox dərəcədə öz ehtiyaclarını külək, Günəş və digər bərpa olunan enerji mənbələri hesabına qarşılayır.

Sürətli enerji keçidini şərtləndirən mühüm amillərdən biri yüksək texnoloji inkişafla bağlıdırsa, digər vazkeçilməz səbəb ətraf mühitin qorunması zərurətidir. Sürətli sənaye inkişafı insanların həyatına yeni-yeni rahatlıqlar gətirməklə, inkişaf üçün daha geniş imkanlar açmaqla yanaşı, həm də atmosferə böyük həcmlərdə karbon emissiyalarının buraxılması, ətraf mühitin daha geniş miqyasda çirkləndirilməsi anlamında qəbul olunur. Bunun nəticəsində intensivləşən qlobal istiləşmə bəzi yerlərdə daşqınlara, digər yerlərdə isə kəskin quraqlığa səbəb olur. Belə bir vəziyyətdə dünya çıxış yolunu enerji resurslarından balanslı şəkildə istifadə edilməsində görür. İqlim dəyişiklikləri ilə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması bu transformasiyanın əsas hərəkətverici qüvvələridir.

## Qlobal enerji sistemində sürətli transformasiya - yaşıl enerji üzrə rekord artım

Qlobal enerji sistemində son illərdə müşahidə olunan dəyişikliklər bərpa olunan enerji mənbələrinin (BOEM) sürətli inkişafı ilə səciyyələnir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2026-cı il üzrə dərc edilən hesabatına görə, bərpa olunan enerji artıq qlobal enerji sistemində aparıcı mövqeyə doğru sürətlə irəliləyir.

IRENA-nın 2025-ci il üzrə əsas göstəricilərinə əsasən, dünyada bərpa olunan enerji üzrə qoyuluş gücü 5149 GVt səviyyəsinə çatıb. Cari il ərzində əlavə olunan yeni güc 692 GVt təşkil edib ki, bu da əvvəlki illərlə müqayisədə rekord artım deməkdir. Bərpa olunan enerji mənbələri artıq qlobal elektrik istehsalının təxminən 49,4faizini təşkil edir. Bununla yanaşı, Günəş və küləyin payı 35,3 faizə çatıb.

İllik artım tempinə gəldikdə, ümumi bərpa olunan enerji mənbələrinin gücü 15,5 faiz, Günəş və külək isə 22,2 faiz artıb. Bu göstəricilər enerji keçidinin sürətləndiyini və xüsusilə Günəş və külək enerjisinin əsas lokomotiv rolunu oynadığını göstərir.

Eyni zamanda, IRENA tərəfindən təqdim olunan 1,5°C ssenarisinə əsasən, 2030-cu ilə qədər qlobal bərpa olunan enerji gücünün 11,17 TVt səviyyəsinə çatdırılması tələb olunur. Lakin 2025-ci ilin sonuna faktiki göstəricinin 5,15 TVt səviyyəsində olduğu, bu da təxminən 6,02 TVt həcmində əlavə potensial çatışmazlığın mövcudluğunu göstərir. Bu hal mövcud artım tempinin əhəmiyyətli dərəcədə sürətləndirilməsinin zəruriliyini bir daha təsdiqləyir.

Bərpa olunan enerji güclərinin mənbələr üzrə bölgüsü göstərir ki, Günəş enerjisi açıq şəkildə dominant mövqedədir. Günəş enerjisi üzrə qoyuluş gücü 2392 GVt səviyyəsinə çatıb ki, bu da onu qlobal enerji keçidinin əsas hərəkətverici qüvvəsinə çevirir.

Hidroenerji 1296 GVt ilə ikinci yerdə qərarlaşsa da, artım tempi nisbətən aşağıdır və daha çox sabit baza enerji mənbəyi kimi çıxış edir. Külək enerjisi isə 1291 GVt ilə hidroenerjiyə yaxın səviyyədə olmaqla sürətli inkişaf edən sektor kimi diqqət çəkir.

Bioenerji (154 GVt), geotermal enerji (16 GVt) və dəniz enerjisi (0,5 GVt) isə ümumi strukturda nisbətən kiçik paya malikdir, lakin enerji diversifikasiyası baxımından əhəmiyyətlidir. Bu struktur onu göstərir ki, enerji sistemlərinin gələcək inkişafı əsasən Günəş və külək enerjisinin genişlənməsi üzərində qurulacaqdır.

## Dünyada bərpa olunan enerji güclərinin regionlar üzrə bölgüsü

IRENA-nın məlumatlarına əsasən, bərpa olunan enerji güclərinin regionlar üzrə bölgüsü qeyri-bərabər xarakter daşıyır və əsas artım müəyyən coğrafiyalarda cəmləşib.

Asiya regionu qlobal lider mövqeyini qoruyur. Bu regionda qoyuluş gücü 2891 GVt təşkil edir və bu, qlobal gücün 56,1faizinə bərabərdir. Cari il ərzində əlavə olunan güc 513,3 GVt olub və 21,6 faiz artım tempi qeydə alınıb. Bu göstəricilər Asiyanın, xüsusilə Çinin qlobal enerji keçidində əsas rol oynadığını təsdiqləyir.

Avropa regionunda bərpa olunan enerji gücü 934 GVt səviyyəsindədir və qlobal payı 18,1 faiz təşkil edir. Cari il ərzində 76,8 GVt artım və 9,0 faiz inkişaf tempi müşahidə olunur. Bu, regionun sabit və planlı şəkildə dekarbonizasiya siyasəti həyata keçirdiyini göstərir.

Şimali Amerikada quraşdırılmış güc 614 GVt, artım isə 42,1 GVt olub. Regionun qlobal payı 11,9 faiz, artım tempi isə 7,4 faiz təşkil edir ki, bu da stabil, lakin Asiya ilə müqayisədə daha sabit inkişaf deməkdir.

Cənubi Amerika 333 GVt güc və 6,3 faiz artım tempi ilə inkişaf etməkdə olan regionlar arasında nisbətən daha yaxşı mövqedədir. Mərkəzi Amerika və Karib regionu isə 21 GVt güc ilə daha kiçik paya malik olsa da, 9,1faiz artım tempi müsbət dinamikanı göstərir.

Afrikada bərpa olunan enerji gücü 82 GVt təşkil edir və 15,9 faiz artım tempi ilə diqqət çəkir. Bu, aşağı baza səviyyəsinə baxmayaraq, regionda sürətli inkişaf potensialının olduğunu göstərir.

Yaxın Şərq regionu 56 GVt gücə malik olmaqla ən yüksək artım tempini (28,9 faiz) nümayiş etdirir. Bu, regionda enerji siyasətinin transformasiya mərhələsində olduğunu göstərir.

Azərbaycanın daxil olduğu Avrasiya regionu, 141 GVt qoyuluş gücünə malikdir və qlobal gücün 2,7 faizini təşkil edir. Cari il ərzində bu regionda 8,4 GVt əlavə güc yaradılıb və 6,3 faiz artım tempi qeydə alınıb.

Bu göstəricilər Avrasiya regionunun hələlik qlobal miqyasda nisbətən kiçik paya sahib olsa da, sabit inkişaf dinamikasına malik olmasını əks etdirir. Xüsusilə enerji ixracatçısı ölkələrinin bərpa olunan enerji sahəsinə keçidi bu regionda gələcək artım potensialının daha böyük olacağı qənaətini yaradır. Azərbaycan üçün isə bu kontekst xüsusi əhəmiyyət daşıyır, çünki ölkə həm ənənəvi enerji ixracatçısı, həm də bərpa olunan enerji potensialına malik dövlət kimi enerji keçidində mühüm rol oynaya bilər.

Okeaniya regionunda isə 76 GVt güc və 1,5 faiz qlobal pay mövcuddur. Regionda 6,1 GVt artım və 8,6faiz inkişaf tempi müşahidə olunur.

IRENA-nın qiymətləndirmələrinə əsasən, mövcud inkişaf tempi saxlanılarsa belə, 2030-cu il iqlim hədəflərinə çatmaq üçün əlavə sürətlənmə tələb olunur. Xüsusilə 1.5°C ssenarisinə uyğun olaraq bərpa olunan enerji güclərinin təxminən iki dəfə artırılması zəruridir.

IRENA-nın təqdim etdiyi göstəricilər bərpa olunan enerji sektorunun qlobal enerji sistemində aparıcı mövqeyə yüksəldiyini aydın şəkildə nümayiş etdirir. Günəş və külək enerjisinin dominantlığı, Asiya regionunun liderliyi və ümumi artım tempinin yüksək olması enerji keçidinin intensiv xarakter aldığını göstərir.

Bununla yanaşı, potensial problemlər qlobal səylərin daha da gücləndirilməsini tələb edir. Effektiv siyasət və koordinasiyalı fəaliyyət nəticəsində dayanıqlı enerji gələcəyinə keçid mümkün olacaq.



## Qlobal təmiz enerji texnologiyaları bazarında sürətli artım dinamikası

Ticarət maneələrinin artmasına baxmayaraq, qlobal təmiz enerji texnologiyaları bazarı 2025-ci ildə rekord göstəricini - 1,1 trilyon dolları ötüb. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (BEA) hesabatında deyilir.

Bildirilir ki, Günəş panelləri, külək turbinləri, batareyalar, elektrik nəqliyyat vasitələri, istilik nasosları və elektrolizatorlardan ibarət bazar son 10 ildə illik orta hesabla təxminən 20 faiz artıb. Bu bazar artımı da təmiz enerji texnologiyalarında qiymətlərin düşməsi ilə paralel olaraq irəliləyib. 2023-2025-ci illər arasında Günəş paneli modullarının qiymətləri təxminən 50 faiz, batareya paketlərinin qiymətləri isə 30 faiz azalıb. Xərclərin azalması bu texnologiyaların rəqabət qabiliyyətini artırıb.

Təmiz enerji texnologiyalarının istehsalına qoyulan investisiyalar 2023-cü ildə 220 milyard dollara çatıb, 2024-cü ildə azalıb və 2025-ci ildə 200 milyard dollardan aşağı düşüb. Avropa İttifaqında (Aİ) təmiz enerji istehsalına qoyulan investisiyalar 2023-2024-cü illər arasında təxminən iki dəfə, Koreya Respublikasında 25 faiz, Hindistanda isə 65 faizdən çox artıb. İstehsal gücünün artımının mövcud tələbatı aşması investisiyaların azalmasına təsir edib.

Agentliyin məlumatına görə, 2024-cü ildə Günəş panelləri istehsal gücü qlobal tələbatın ikiqatından, batareya elementləri istehsal gücü isə bu səviyyədən üç dəfədən çox olub. Təmiz enerji texnologiyaları sektorunda gömrük rüsumları, məhsulların istehsal xərclərindən aşağı satılması səbəbindən tətbiq olunan antidempinq tədbirləri və digər ticarət məhdudiyyətləri də artıb. 2024-cü ildə Günəş enerjisi təchizatı zəncirində qlobal çəkili orta gömrük rüsumu və tarif dərəcəsi əvvəlki ilə nisbətən 9 dəfə artaraq təxminən 36 faizə çatıb. Lakin, təmiz enerji texnologiyaları üzrə beynəlxalq ticarətin ümumi dəyəri 2025-ci ilin ikinci rübündə rekord səviyyəyə çatıb.

IEA-nın proqnozlarına görə, mövcud siyasətlər davam etdirilərsə, təmiz enerji texnologiyaları bazarının 2035-ci ildə təxminən 1,9 trilyon dollara çatacağı gözlənilir. Lakin, hökumətlərin siyasət hədəfləri nəzərə alınarsa, bazarın 2035-ci ildə 2,6 trilyon dolları keçəcəyi təxmin edilir. Hər iki ssenaridə 2030-cu illərin ortalarına qədər elektrikli nəqliyyat vasitələrinin ümumi bazar dəyərinin təxminən dörddəüçünü təşkil edəcəyi gözlənilir. Aİ-də ümumi enerji istehlakında qalıq yanacaq idxalı payının 2024-cü ildəki 55 faizdən 2035-ci ildə 40 faizə düşəcəyi gözlənilir.

## Asiya nəhəngi Çinin liderliyi

Təqdim olunan statistika dünyada bərpa olunan enerji və müvafiq texnoloji avadanlıqların istehsalında güclü rəqabətin başladığını təsdiqləyir. Son illərdə dünyanı özünün təsəvvürəgəlməz texnoloji inkişafı ilə tez-tez təəccübləndirən Çin bu sahədə də böyük uğurlara imza atmaqla perspektiv üçün ambisiyalı hədəflər müəyyənləşdirir. Hazırda Çin bərpa olunan mənbələrdən əldə edilən elektrik enerjisinin istehsalına görə dünyanın lider ölkəsidir və bu göstərici üzrə ən yaxın rəqibi ABŞ-ı iki dəfə qabaqlayır.

Çin 2020-ci ildən bəri təmiz enerji texnologiyalarının istehsalına qoyulan qlobal investisiyaların təxminən 70 faizini təşkil edərək liderliyini qoruyub saxlayıb. Həmçinin bu ölkənin təmiz enerji texnologiyaları ixracatı 2025-ci ildə əvvəlki ilə nisbətən 11 faiz artaraq 160 milyard dolları keçib. Çinin elektrikli nəqliyyat vasitələri, batareya elementləri və istilik nasosları istehsalında növbəti 10 ildə artımın 40-50 faizinin ixrac bazarlarına yönəldilməsi gözlənilir.

*Mübariz FEYİZLİ*

# Fransada keçirilən qəribə festival

## Donuz səsini təqlid üzrə çempionatın tarixçəsi və yarım əsr yaşamasının sirri

Fransada şərab, pendir, milli mətbəx, tarix və ənənəvi mədəniyyətlə bağlı saysız-hesabsız festivallar keçirilir, amma ölkənin cənub-qərbində yerləşən kiçik Trie-sur-Baise şəhərində keçirilən bir tədbiri bunlarla müqayisə etmək çətindir. Çünki hər ilin avqust ayında burada insanlar bir araya gələrək kimin daha yaxşı donuz səsi çıxardığını müəyyənləşdirmək üçün yarışırlar. Kənardan baxana bu mənzərə ilk anda sadəcə gülməli bir tamaşa təsiri bağışlaya bilər, halbuki qəribə yarışın arxasında kiçik bir şəhərin tarixini, kənd təsərrüfatını, heyvandarlıqla bağlı keçmişini, yerli insanların öz şəhərlərinə bağlılığını və zaman keçdikcə yoxa çıxan kənd iqtisadiyyatını qoruyub saxlamaq cəhdi dayanır.

Bu tədbir La Pourcailhade, yəni "Donuz bayramı" adlanır və onun ən məşhur hissəsi "Championnat de France du cri du cochon" - Donuz səsini təqlid etmək üzrə Fransa çempionatıdır. Qıraqdan baxanda bu, absurd və gülməli bir yarış kimi görünür, amma Trie-sur-Baise sakinləri üçün bunun öz məntiqi var, çünki donuz bu şəhərin sadəcə bayram simvolu yox, uzun illərdən bəri iqtisadi və ictimai həyatının bir hissəsi olub.

Bu qəribə yarışın niyə məhz Trie-sur-Baise şəhərində yarandığını başa düşmək üçün əvvəlcə şəhərin keçmişinə nəzər salmaq lazımdır, çünki bu kiçik yaşayış məntəqəsi uzun illər Fransanın ən mühüm donuz balası ticarəti mərkəzlərindən biri olub. İkinci Dünya müharibəsindən sonra şəhər donuz bazarı ilə ölkə daxilində daha çox tanınıb, hər çərşənbə axşamı buraya minlərlə donuz balası gətirilib, ən gur dövrlərdə isə bazarda çox böyük sayda heyvan satılıb və 1970-ci illərdə donuzçuluq artıq şəhərin iqtisadi həyatının ayrılmaz hissəsinə çevrilib.

Ona görə də şəhərdə donuza həsr olunmuş bayram keçirmək təsadüfi qərar yox, əksinə, yerli əhalinin öz tarixini və həyat tərzini qorumaq üçün seçdiyi bir yol olub. Bayramın mənası çox sadədir: "Bu, bizim tariximiz, iqtisadiyyatımız, mədəniyyətimizdir".

1975-ci ildə şəhərdə "Trie Trouje Porc" adlı qəribə bir oyun meydana çıxıb; iştirakçılar hansısa insanı, heyvanı və ya əşyanı onun çıxardığı səsi təqlid etməklə tapmalı idilər. Həmin oyun zamanı iştirakçılardan birinin donuz səsini təqlid etməsi sonradan məşhur çempionatın yaranmasına gətirib çıxaran hadisələrdən sayılır. Beləliklə, bu yarış əvvəldən kiminsə qəribə və gülməli şou yaratmaq istəyindən doğmayıb, kiçik aqrar şəhərin öz iqtisadi tarixini və yerli həyatını bayram şəklində yaşatmaq istəyindən yaranıb.

### Çempionat nə vaxt başlanıb?

Burada maraqlı bir tarixi məqam var. Mənbələrdə tədbirin başlanma tarixi ilə bağlı müəyyən fərq mövcuddur və bunu dəqiq izah etmək lazımdır, çünki bəzi mənbələr La Pourcailhade festivalının başlanğıcını 1975-ci ildən hesablayır, müasir Trie-sur-Baise materiallarında isə ilk böyük və rəsmi Pourcailhade-nin keçirilmə tarixi 1981-ci il kimi göstərilir. Həmin ildə tədbir daha təmtəraqlı təşkil olunub, La Depeche du Midi qəzetinin podiumu və tanınmış müğənni Linda de Souza şəhərə gəlib, məhz həmin il ilk yarış keçirilib, amma yarışa cəmi üç nəfər qatılıb. Çempionatın ilk qalibi kimi isə ənənəvi olaraq Yves Lartiguenin adı çəkilir və onun qələbəsinin tarixi 1982-ci illə əlaqələndirilir. Buna görə hadisələrin ən düzgün ardıcıllığı belədir: 1975-ci il - donuzla bağlı ilk oyunlar və bayram ənənəsinin yaranması; 1981-ci il - ilk dəfə böyük təmtəraqla təşkil olunmuş La Pourcailhade; 1982-ci il - donuz səsini təqlid etmək üzrə ilk təsdiqlənmiş çempion.

Yəni "Fransa donuz təqlidi çempionatını 1975-ci ildən keçirir" demək tam dəqiq ifadə sayılmır; daha düzgün yanaşma budur ki, festivalın kökü 1970-ci illərin ortalarına gedib çıxır, çempionat isə sonrakı illərdə ayrıca formalaşıb.



### Kiçik şəhər miqyaslı yarışdan Fransa çempionatına

Tədbirin uğuru təşkilatçıların gözlədiyindən böyük oldu - yarış artıq təkcə Trie-sur-Baise sakinlərini maraqlandırmırdı. Çox keçməmiş Fransanın müxtəlif bölgələrindən insanlar buraya axışmağa başladılar, Elzasdan, Lion bölgəsindən, Bask ölkəsindən, Marseldən, Bordodan, Sevenlərdən və başqa yerlərdən iştirakçılar yarışa qatıldılar. Məsələn, 1985-ci ildə çempionatda ilkin seçimdən keçən 20 iştirakçı mübarizə aparıb, finalı isə bir neçə min tamaşaçı izləyib. Həmin vaxtlar teleşirkətlər də bu qəribə yarışa maraq göstərməyə başlayıb, fransız televiziya qrupları ilə yanaşı Almaniya televiziyası da tədbiri işıqlandırıb. Hətta ABŞ-ın CBS kanalı da yarışla maraqlanıb, baxmayaraq ki, həmin il onun çəkiliş qrupu son anda iştirakdan imtina edib. Beləliklə, kiçik bir şəhərin öz tarixini qorumaq üçün yaratdığı yerli əyləncə getdikcə ölkə səviyyəsində tanınan media hadisəsinə çevrilib.

### Niyə məhz donuz səsi?

Bu sualın cavabı da həmin şəhərin kənd təsərrüfatı keçmişində gizlənir. Uzun illər donuzçuluq və donuz alveri ilə güzəran sürən şəhərdə heyvan səsləri gündəlik həyatın bir hissəsi olub. Yarışın ilk illərində iştirakçıdan donuzun müxtəlif vəziyyətlərdə (doğma, yemlənmə, cütləşmə və hətta kəsilmə anında) çıxardığı səsləri təqlid etmək tələb olunub. 1985-ci ildə Le Monde qəzeti yazırdı ki, iştirakçılar ciddi seçim prosesindən keçirlər, münsiflər heyətində baytarlar, fermerlər, heyvandarlıq üzrə yerli mütəxəssislər də yer alır və münsiflərin fikrincə, yaxşı nəticə göstərmək üçün sadəcə səs çıxarmaq kifayət etmir, iştirakçı "donuzu başa düşməlidir". Bu, çox maraqlı məqamdır, çünki təşkilatçılar yarışın yalnız gülüş və məsxərə üzərində qurulmasını istəmirdilər, onlar donuzçuluğun bölgənin iqtisadi həyatında oynadığı rola hörmətlə yanaşmaq istəyirdilər. Bu səbəbdən yarış bir tərəfdən əyləncə, digər tərəfdən isə kənd həyatının yaddaşını qoruyan bir ənənəyə çevrilmişdi.

### Fransızlar bu bayramı niyə sevirlər?

Burada fransız mədəniyyətinin maraqlı bir xüsusiyyəti özünü büruzə verir: fransızlar özləriylə zarafatlaşmağı, həyatın bəzi ciddi tərəflərinə yumorla yanaşmağı və bəzən tamam absurd görünən tədbirlər keçirməyi xoşlayırlar. Trie-sur-Baise-də keçirilən Donuz bayramı bu milli xüsusiyyətin parlaq nümunəsidir. Bayram yalnız donuz səsi yarışından ibarət deyil, burada donuz balalarının da yarışları keçirilir, qanlı kolbasa yemək üzrə müsabiqələr, müxtəlif qastronomik tədbirlər, hətta oyuncaq donuz atmaq üzrə yarış da təşkil olunur. Buna görə yerli adamlar bu tədbirə yalnız "kim udacaq?" marağıyla gəlmirlər, onlar şənliyin özünə, musiqiyə, gülüşə, həmrəyliyə, ümumi ovqata görə bayram tədbirlərində iştirak edirlər. Münsiflər də yalnız kimin daha yaxşı donuz səsi çıxardığına baxmırlar, iştirakçının səhnədə necə davranması, geyimi, çıxışı və tamaşaçıların reaksiyası da nəzərə alınır. Yəni qalib olmaq üçün iştirakçı həm donuzu yaxşı təqlid etməli, həm aktyor kimi performans göstərməli, həm də tamaşaçını əyləndirməyi bacarmalıdır. Bu səbəbdən yarış zaman keçdikcə xalq teatrına və böyük şouya çevrilib.

*Kəramət Qənbərov,*
*Beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

# İran Avropaya hücum etsə...

## Yaxın Şərqi yeni eskalasiya təhlükəsi gözləyir

Yaxın Şərqdə gedən müharibənin miqyası böyüyə bilər. Belə bir ehtimal isə münaqişənin tərəflərinin artmasına gətirib çıxaracaq. Belə ki, NATO İrandan gələcək istənilən təhdidi dəf etməyə və müttəfiqlərini müdafiə etməyə hazır olduğunu bildirib. Bu barədə alyansın sözçüsü "Financial Times" qəzetində Tehranın ABŞ ilə münaqişənin gərginləşməsi halında Avropadakı Amerika hərbi obyektlərinə zərbələr endirməyi nəzərdən keçirdiyini bildirən məqaləni şərh edərkən bildirib. Buraya ABŞ-ın təyyarələri yanacaqla doldurmaq üçün Bezmer hava bazasından istifadə etdiyi Bolqarıstan və Britaniya hava bazasının yerləşdiyi Kipr də daxil idi. "Bu ilin əvvəlində NATO hava hücumundan müdafiə sistemləri İrandan Türkiyəyə doğru gedən ballistik raketləri dörd dəfə uğurla zərərsizləşdirib. Müdafiəmiz və çəkindirmə qabiliyyətimiz güclü və təsirlidir", - deyə NATO sözçüsü cavab olaraq bildirib.

Qeyd edək ki, Bolqarıstan iyul ayında ABŞ-a öz hava bazasından yanacaq doldurmaq üçün istifadə etməyə icazə verib. Britaniya hava bazaları isə Kiprdə yerləşir. İranın xarici işlər naziri Abbas Əraqçı isə ABŞ-a Bolqarıstandakı hərbi bazadan istifadə icazəsinin verilməsindən sonra Sofiya rəhbərliyinə xəbərdarlıq edib. Əraqçı bolqarıstanlı həmkarı ilə görüşündə İran əleyhinə hərbi hücumda hər hansı formada iştirak edən tərəfin bunun nəticələrinə görə məsuliyyət daşıyacağını bildirib.

## Rutte demişdi - amma indi vəziyyət dəyişib

Xatırladaq ki, "The Wall Street Journal" qəzeti bir müddət öncə İran və ərəb rəsmilərinə istinadən Tehranın Yaxın Şərqdə münaqişənin gərginləşməsi halında bir plan hazırladığını bildirmişdi. Qəzetin mənbələrinə görə, Tehran iyun ayında ABŞ ilə imzalanan memorandumu Vaşinqton və İsrailin yeni bir hücumdan əvvəl vaxt qazanmaq cəhdi hesab edir. Mart ayında NATO-nun baş katibi Mark Rutte bildirmişdi ki, alyans qüvvələri İrana qarşı hərbi əməliyyatlarda iştirak etməyəcək. Bir neçə ay sonra Bloomberg agentliyi yazmışdı ki, əgər İran Hörmüzdə su yolunun blokadasını qaldırmasa, NATO Hörmüz boğazından gəmilərin keçidini təmin etməkdə iştirak imkanını müzakirə edəcək. Avqustun ortalarında ABŞ Prezidenti Donald Tramp yenidən ritorikasını gücləndirərək İranın "sarsıdıcı məğlubiyyətə uğradığını" və Hörmüz boğazının tezliklə ABŞ ərazisinə çevriləcəyini bildirdi. Eyni zamanda, xarici media ABŞ rəsmisinə istinadən Trampın İrana münasibətini dəyişdirdiyini, sonrakı danışıqlardan imtina etdiyini və Tehrana təzyiqin tədricən artacağını vurğuladığını bildirmişdi.

### Tehran susur...

Tehran Avropaya qarşı təhdidlərlə bağlı son media xəbərlərinə münasibət bildirməsə də, 19 avqustda İranın ali hərbi komandanlığının sözçüsü general Əli Əbdüllahi Əliabadi ABŞ ilə əməkdaşlıq edən Körfəz ölkələrinə daha bir xəbərdarlıq edərək onları İran ərazisinə hücumların təşkilində Vaşinqtona kömək etməkdə günahlandırıb. Bəyanat Birləşmiş Ərəb Əmirliklərinin İranla bütün ticarət, kommersiya mübadilələri və maliyyə əməliyyatlarını növbəti xəbərdarlığa qədər dayandırmaq qərarından sonra verilib. BƏƏ hakimiyyəti Tehranı ölkəyə iki raket atmaqda ittiham edərək, hücumun dəniz gəmiçiliyini hədəf aldığını iddia edib. İran tərəfi isə bu iddiaları təkzib edib.



## Tramp bütün təmasları dayandırdı

Xarici medianın ABŞ rəsmisinə istinadən verdiyi məlumata görə, ABŞ Prezidenti Donald Tramp İrana yanaşmasını dəyişdirib, danışıqlardan imtina edib və Tehrana təzyiqin tədricən artmasını vurğulayıb. Televiziya kanallarının məlumatına görə, Tramp administrasiyanın yüksək vəzifəli rəsmilərinə İranla danışıqları dayandırmaq tapşırılıb. Hesabatda deyilir ki, "Ağ Ev rəsmiləri bu yaxınlarda siyasi müttəfiqlərinə strategiyalarını dəyişdirdiklərini bildiriblər" - "mümkün qədər tez vurmaq"dan "zamanla boğmaq"a keçiblər.

Mənbələrə görə, ABŞ Prezidenti İranla danışıqlar qrupuna Tehranla dialoq aparmamağı tapşırıb. Qeyd edək ki, danışıqlar qrupuna ABŞ prezidentinin elçisi Cared Kuşner, ABŞ vitse-prezidenti J.D. Vens və xüsusi elçi Stiv Vitkoff daxildir. Daha əvvəl Tramp dəfələrlə Tehranla diplomatik səylərin irəlilədiyini və yeni bir razılaşma əldə ediləcəyini bildirmişdi.

Avqustun 19-da isə Tramp sosial media platforması Truth Social-da yazıb: "İran İslam Respublikası ilə davam edən və ya planlaşdırılan danışıqlar və ya əlaqələr yoxdur". ABŞ Prezidenti əlavə edib ki, İrana qarşı dəniz blokadası qüvvədədir və Hörmüz boğazı açıq qalır. Trampın sözlərinə görə, boğazdakı bütün dəniz minaları təmizlənib və ya məhv edilib.

"Reuters" xəbər verir ki, ABŞ artıq minlərlə İran vətəndaşına və şirkətinə sanksiyalar tətbiq edib, lakin Tehran bloklanmış şəxslərin yerini doldurmaq üçün tez bir zamanda yeni qurumlar yaradır. Agentlik bu təcrübəni "köstəbək oyunu" ilə müqayisə edib.

"Reuters" agentliyinin məlumatına görə, Vaşinqtonun İrana təzyiqi artırmaq üçün ən çox ehtimal olunan vasitələrinə bir sıra aparıcı ölkələrin neft emalı zavodlarına və əsasən banklarına qarşı sanksiyalar, quru blokadası və ikinci dərəcəli tariflər daxildir. Agentlik qeyd edir ki, İranın xüsusilə Asiya ölkələri ilə iqtisadi əlaqələri ABŞ üçün əsas manea olaraq qalır. Daha əvvəl ABŞ Maliyyə Naziri Skott Bessent Trampın İranın iqtisadi təcridini "görünməmiş səviyyəyə" qaldıracaq tədbirlər hazırladığını bildirmişdi.

## Yaxın Şərqi nə gözləyir?

Xarici siyasi ekspertlərin qiymətləndirmələrinə görə, İranın Avropadakı ABŞ hərbi obyektlərinə zərbə endirməsi ssenarisi reallaşarsa, Yaxın Şərq böhranının coğrafiyası ilk dəfə NATO ərazisinə qədər genişlənə bilər. Ekspertlərin fikrincə, burada əsas məsələ NATO-nun 5-ci maddəsinin avtomatik olaraq İrana müharibə elan etməsi demək olmamasıdır - Maddə silahlı hücum halında kollektiv müdafiə öhdəliyi yaradır, lakin hər bir müttəfiqin bu öhdəliyə hansı formada cavab verəcəyini özü müəyyənləşdirir. Buna görə ilk mərhələdə NATO-nun hava və raketdən müdafiə sistemlərinin gücləndirilməsi, kəşfiyyat mübadiləsi və ABŞ qüvvələrinin qorunması daha real ssenari hesab olunur.

Lakin vəziyyətin gərginləşəcəyi, dolayısı ilə, Körfəzdə yaranan vəziyyətin analogiyasının Avropada yaranması, NATO coğrafiyasına hücum nəticəsində ciddi itkilərin qeydə alınması alyansın cavab zərbələri endirmə ehtimalını kəskin yüksəldir. Bu halda ekspertlər İranın raket infrastrukturu, hərbi komandanlıq mərkəzləri və pilotsuz uçuş aparatlarının bazalarının hədəfə çevrilə biləcəyini istisna etmirlər.

Belə bir inkişaf Yaxın Şərqdə çoxcəbhəli müharibə yarada bilər. İran Körfəzdə, İraqda, Suriyada və Livanda müttəfiq qüvvələri vasitəsilə cavab verməyə çalışa, Hörmüz boğazında enerji və gəmiçilik təhlükəsizliyi daha da pisləşə bilər. Bunun nəticəsində neft qiymətlərinin yüksəlməsi və qlobal enerji bazarında yeni böhran ehtimalı artar.

Ekspertlərin ümumi qənaəti budur ki, belə ssenaridə əsas məqsəd hərbi qələbədən çox eskalasiyanın NATO-İran müharibəsinə çevrilməsinin qarşısını almaq olacaq. Əks halda regional qarşıdurma qısa müddətdə qlobal təhlükəsizlik və iqtisadiyyat üçün sistemli böhrana çevrilə bilər.

**SADİQ**

# "3+1" pesrpektivi...

## Misir Məkkə sazişinə qoşulacaq?

Yaxın Şərqdə təhlükəsizlik mühitinin sürətlə dəyişdiyi, regional qarşıdurmaların qeyri-müəyyən istiqamət qazandığı bir vaxtda Məkkədə imzalanan Birgə Müdafiə Sazişi yeni strateji reallığın formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Saziş Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında müdafiə əməkdaşlığını institusional müstəviyə çıxararaq, tərəflərin təhlükəsizlik imkanlarının bir-birini tamamlamasına şərait yaradır. Burada söhbət yalnız hərbi əməkdaşlıqdan deyil, dəyişən regional güc balansına kollektiv cavab mexanizminin formalaşdırılmasından gedir.

Ekspertlərin də qeyd etdiyi kimi, Məkkə sazişi Türkiyənin NATO təcrübəsi və hərbi sənaye imkanlarını, Pakistanın nüvə çəkindiriciliyini və Səudiyyə Ərəbistanının maliyyə-strateji potensialını vahid təhlükəsizlik çərçivəsində bir araya gətirir. Bu baxımdan saziş Yaxın Şərqdə güc balansının yenidən qurulmasına təsir göstərə biləcək mühüm platformadır. Eyni zamanda onun gələcəkdə digər dövlətlərin də əməkdaşlığa cəlb olunması üçün açıq modelə çevrilməsi regional təhlükəsizlik arxitekturasının coğrafiyasını daha da genişləndirə bilər.

## Məkkə sazişi hansı siyasi üstünlüklərə malikdir

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistanın Baş naziri Şahbaz Şərif və Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman tərəfindən imzalanaraq üçtərəfli kollektiv təhlükəsizlik paktına çevrilən sənədə görə, iştirakçı ölkələrdən birinə silahlı hücum bütün alyansa qarşı təcavüz hesab ediləcək. Bu blok güc balansını kökündən dəyişdirən fundamental hərbi və siyasi irəliləyişi təmsil edir. Bundan əlavə, qeyd olunur ki, gələcəkdə bölgədəki digər müsəlman ölkələri də alyansa qoşula bilər. Xüsusilə Türkiyə Misirin qoşulmasına ümid edir. Burada önə çıxan və diqqəti cəlb edən əsas məqam Vaşinqtonun tərəf olaraq bu sazişdə iştirak etməməsidir. Siasi analitiklərin fikrincə, bu, ABŞ Prezidenti Donald Trampın siyasi xəttində ən əsas mahiyyəti tutan nöqtə nəzarət sisteminə keçidlə bağlıdır. Məkkə Alyansı, paralel olaraq Qlobal Cənubun aparıcı dövlətləri Vaşinqtonun birbaşa iştirakı olmadan sabitliyi təmin etmək nümunəsini ortaya qoyurlar.

Vurğulandığı kimi, saziş imzalanan gündən etibarən Misirin burada iştirakı məsələsi açıq kontekstə çevrilib. Təsadüfi deyildi ki, Türkiyənin xarici işlər naziri Nakan Fidan da bu məsələyə toxunmuşdu və Qahirə üçün qapıların açıq olduğunu qeyt etmişdi. Bu da təsadüfi deyil. Artıq bir müddətdir ki, Yaxın Şərqdə sabitliyin bərpası prosesində Misir Türkiyə və Pakistanla çiyin-çiyinə iştirak edir, istər Qəzza problemi, istərsə də İran-ABŞ münaqişəsi məsələsində Qahirə də vasitəçilər arasında yer alır.



## Qahirənin gəlişi hansı yeniliklərə yol açır...

Xüsusilə Qərb mətbuatında yer alan əsas məqam bu alyansın Misirə nə qazandıracağı, Misirin bu alyansa nə verə biləcəyidir. Misirin Məkkə sazişinə qoşulması ilk növbədə Yaxın Şərqdə yeni təhlükəsizlik arxitekturası yarada bilər. Bu haqda xarici media analitiklərə istinadən yazır. Bildirilir ki, Misirin Məkkə Birgə Müdafiə Sazişinə qoşulması perspektivi Yaxın və Orta Şərqdə təhlükəsizlik balansının dəyişməsi baxımından mühüm hadisə ola bilər. Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında imzalanan sazişə Qahirənin də qoşulması onun coğrafi və hərbi-siyasi çəkisini əhəmiyyətli dərəcədə artıracaq. Çünki Misir ərəb dünyasının ən böyük hərbi potensiala malik dövlətlərindən biri olmaqla yanaşı, Süveyş kanalı, Qırmızı dəniz və Aralıq dənizi arasında strateji mövqeyə sahibdir.

Misirin bu sazişə qoşulması Qırmızı dənizdə gəmiçiliyin təhlükəsizliyi, terrorizm və digər transsərhəd təhdidlərə qarşı mübarizədə də koordinasiyanı gücləndirə bilər. Bununla yanaşı, belə bir əməkdaşlığın hər hansı konkret dövlətə qarşı hərbi blok xarakteri almaması mühüm əhəmiyyət daşıyır. Əks halda, regionda yeni qarşıdurma xətləri yarana bilər.

Əslində proses daha böyük tendensiyanın - Yaxın Şərqdə təhlükəsizlik arxitekturasının regional aktorların iştirakı ilə yenidən qurulmasının tərkib hissəsidir. Misirin iştirakı bu mexanizmə yeni siyasi çəki verərək, Ankara-Ər Riyad-Qahirə-İslamabad əməkdaşlığını regionun ən mühüm geosiyasi platformalarından birinə çevirə bilər.

Bu həm də, Misir üçün strateji çəkisini artırmaq imkanı yaranır. Misirin sazişə daxil olması ilə dəniz təhlükəsizliyi komponentini də gücləndirə bilər. Başqa sözlə, hazırda Qırmızı dənizdə gəmiçiliyə qarşı təhdidlərin artdığı bir vaxtda Misir özünü tək hiss etməyəcək. Təsadüfi deyil ki, bir müddət əvvəl Türkiyə də Qırmızı dənizdə beynəlxalq təhlükəsizlik səylərində iştirak etmək niyyətini açıqlayıb.

Beləliklə, Misirin Məkkə sazişinə qoşulması ilə alyans Yaxın Şərqin ən ciddi hərbi-siyasi koordinasiya platformalarından birinə çevrilə bilər. Siyasi mütəxəssislər prosesi Yaxın Şərqdə "təhlükəsizliyin regionalizasiyası" prosesinin mühüm mərhələsi hesab edir. Qahirənin iştirakı sazişə həm hərbi, həm coğrafi, həm də siyasi mənada əlavə legitimlik qazandıracaq. Eyni zamanda Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan və Misirin bir mexanizm daxilində koordinasiyası İslam dünyasının aparıcı dövlətləri arasında daha institusional təhlükəsizlik əməkdaşlığının əsasını qoya bilər.

### Məkkə sazişinin hərbi potensialı: Misirin qoşulması nə qazandıra bilər?

Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında imzalanan Məkkə Birgə Müdafiə Sazişi hərbi imkanları baxımından kifayət qədər ciddi potensiala malik üç dövləti bir araya gətirib. Statistik göstəricilər bu potensialın miqyasını aydın göstərir. Belə ki, ölkələrin hərbi müdafiə xərclərinə ayırdığı büdcəyə baxsaq, 2025-ci ildə bu rəqəm Səudiyyə Ərəbistanı üzrə 83,2 milyard, Türkiyə üçün 30 milyard, Pakistan üçün isə 11,9 milyard dollar olub. Sazişə qoşulmağa hazırlaşan Misirdə isə bu rəqəm 2,5 milyard dollardır. Paralel olaraq Səudiyyə Ərəbistanının aktiv hərbçi sayı 247 min, Türkiyənin 481 min, Pakistanın 660 min, Misirin isə 438,5 mindir. Səudiyyə Ərəbistanının arsenalında 917 təyyarə, 1085 tank, Türkiyə ordusunda 1101 təyyarə 2284 tank, Pakistanda 1397 təyyarə, 2677 tank var. Misirdə isə təyyarə sayı 1088-dir.

Hazırkı üçtərəfli formatda Türkiyə texnoloji və müdafiə sənayesi imkanları, Pakistan böyük quru qoşunları, raket və nüvə potensialı, Səudiyyə Ərəbistanı isə maliyyə imkanları, yüksək texnologiyalı Qərb silah sistemləri və strateji coğrafiyası ilə seçilir. Pakistan eyni zamanda müsəlman dünyasının yeganə nüvə silahına malik dövlətidir. Qahirənin sazişə qoşulması üç ölkəni qarşılıqlı müdafiə mexanizmindən çıxararaq Şimali Afrikadan Cənubi Asiyaya qədər uzanan regional təhlükəsizlik platformasına çevirə bilər. Ən mühüm qazanc isə hava hücumundan müdafiə, dəniz təhlükəsizliyi, kəşfiyyat və hərbi logistika sahələrində imkanların birləşdirilməsi olacaq. Misir bu mənada sazişin "əsas coğrafi halqası" funksiyasını yerinə yetirə bilər.

**P.İSMAYILOV**

# Hörmüz boğazında qeyri-müəyyənlik: Dünya bundan necə təsirlənir?

Cari ilin fevral ayından başlayaraq Yaxın Şərq yenidən od-alova bürünüb. Hazırda aylardır ki, davam edən ABŞ-İran müharibəsinin ən həssas məqamı Hörmüz boğazı ətrafında yaranan gərginliklə bağlıdır. Dünyanın ən önəmli su yollarından biri sayılan Hörmüz müharibənin gedişində tərəflər arasında siyasi təzyiq alətinə çevrilib. Deyə bilərik ki, indi İranla Oman arasında yerləşən bu dar keçiddə ikihakimiyyətlilik hökm sürür. Həm ABŞ, həm də İran İnqilab Keşikçiləri Korpusu (SEPAH) burada öz qüvvələrini yerləşdiriblər. İran boğazdan keçidin bu ölkənin nəzarəti altında təmin edilməsi zərurətini şərt kimi irəli sürür, hətta müyyən rüsumların ödənilməsini istəyir. ABŞ isə Hörmüzə tam nəzarət etdiyini bildirərək İranın şərtlərini qəbuledilməz adlandırır. Beləliklə, Hörmüzdə vəziyyət gərgin olaraq qalır. Son olaraq cəmi bir neçə gün bundan əvvəl Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) iki gəmisi Hörmüz boğazında hücuma məruz qalıb. Yaranmış vəziyyət kommersiya kəmiçiliyinin fəaliyyətini iflic edib ki, bunun da qlobal miqyasda zərərləri çox böyükdür.

Xatırladaq ki, müharibədən əvvəl dünyanın neft-qaz tələbatının təxminən 20 faizi məhz Hörmüz vasitəsi ilə daşınan enerji məhsulları hesabına ödənilirdi. Bundan başqa, region dövlətləri boğaz vasitəsi ilə gübrə, ərzaq və digər məhsulların idxalını həyata keçirirdilər.

## Hörmüzdən daşınan neft və neft məhsullarının həcmində kəskin azalma

Hörmüz boğazından daşınan xam neft və digər neft məhsullarının həcmi münaqişədən əvvəl - 2025-ci ilin son rübündə gündəlik orta hesabla 21,6 milyon barel olduğu halda, bu göstərici cari ilin ikinci rübündə sutkada 4,9 milyon barelə düşüb. Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatında deyilir.

EIA qeyd edib ki, Bab əl-Məndəb boğazı həm qlobal neft ticarətində vacib tranzit nöqtəsi, həm də Səudiyyə Ərəbistanının Hörmüz boğazından istifadə etmədən neft ixracını həyata keçirməsi üçün alternativ yollardan biridir. Səudiyyə Ərəbistanının Misirdəki Süveyş kanalı və Süveyş-Aralıq dənizi (SUMED) boru kəməri vasitəsilə daşımalarını yenidən istiqamətləndirmək seçimi olsa da, bu alternativlər daha uzun, bahalı və məhdud tutuma malikdir.

Hesabatda xatırladılır ki, Hörmüz boğazında yaranan vəziyyət neft qiymətlərinə təsirsiz ötüşmür. İyun ayında ABŞ və İran arasında imzalanan sülh razılaşmasından sonra “Brent” markalı xam neftin bir barelinin qiyməti iyulun 2-də 69 dollara düşüb. Lakin, Hörmüz boğazından keçən tankerlərə hücumların yenidən başlaması və iyulun sonrakı günlərində neft daşınmalarının azalması qiymətlərin artmasına səbəb olub.

EIA-ya görə, Səudiyyə Ərəbistanının Bab əl-Məndəb boğazından həyata keçirdiyi neft ixracına yeni blokadanın tətbiq olunması riski də neft qiymətlərinə təsir edib.

Hesabatda Hörmüz boğazında davam edən fasilələrin qlobal neft ehtiyatlarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olduğu və neft axını normal vəziyyətə qayıdana və ehtiyatlar doldurulana qədər qiymətlərin yüksək qalacağı proqnozlaşdırılır. Bildirilir ki, qlobal neft ehtiyatları bu ilin ikinci rübündə gündəlik orta hesabla 4,2 milyon barel azalıb və üçüncü rübdə isə sutkada orta hesabla 3,8 milyon barel azalacağı proqnozlaşdırılır.

Bu dinamikanı nəzərə alaraq, “Brent” markalı xam neftin bir barelinin qiymətinin üçüncü rübdə orta hesabla 85 dollar olacağı gözlənilir. Bu proqnoz ötən ayın hesabatındakı proqnozla müqayisədə 11 dollar yuxarıdır. Hörmüz boğazında tanker trafikinin tədricən artması və istehsalın bərpası ilə neft qiymətlərinin dördüncü rübdə bir barel üçün orta hesabla 78 dollara düşəcəyi proqnozlaşdırılır.

Eyni zamanda, 2027-ci ilin birinci rübündə dayandırılmış istehsalın böyük hissəsinin işə düşməsi və qlobal neft ehtiyatlarının yenidən artmağa başlaması ilə “Brent” neftinin bir barelinin qiymətinin gələn il orta hesabla 69 dollara düşməsi gözlənilir.




## BEA: Dünyada neft çatışmazlığı daha da artacaq

Beynəlxalq Enerji Agentliyinin (BEA) neft bazarına dair aylıq hesabatında isə bildirilir ki, yüksək enerji qiymətlərinin tələbi azaltmasına baxmayaraq, İranla yenidən alovlanan münaqişə səbəbindən qlobal neft ehtiyatlarının bu rüb ərzində gözləniləndən daha çox azalacağı proqnozlaşdırılır. Hesabatda diqqətə çatdırılır ki, yenidən alovlanan münaqişələr və dəniz nəqliyyatında pozuntular istehsalın bərpasına mane olduğu üçün neft bazarları gündəlik 1,8 milyon barel kəsirlə üzləşir. 2026-cı il üzrə bu kəsir son beş ildə qeydə alınan ən yüksək göstərici olacaq.

BEA yüksək yanacaq qiymətləri səbəbindən bu il qlobal neft tələbatının aşağı düşməsi ilə bağlı proqnozunu təxminən 50 faiz artıraraq gündəlik 1,6 milyon barelə çatdırıb. Qeyd olunur ki, ehtiyatlar yenidən azalır və bu, 2020-ci ildəki COVID pandemiyasından bəri ən böyük orta illik azalmadır.

Agentliyin məlumatına görə, neft bazarları tədarük artıqlığına qayıtdıqdan sonra dünyanın tükənmiş ehtiyatlarının gələn il doldurulması lazım olacaq. Bildirilir ki, mart ayında ABŞ, Yaponiya və Almaniya kimi üzv dövlətlər rekord miqdarda neft ehtiyatı işlətdiyini elan etdikdən sonra strateji neft ehtiyatlarını doldurmalı olacaqlar. “Bazarın bu ilin sonuna yaxın tədarük artıqlığına qayıtması proqnozlaşdırılsa da, risklər əhəmiyyətli olaraq qalır və strateji neft ehtiyatlarının sürətlə tükənməsi səbəbindən Hörmüz boğazının yenidən açılmasının təciliyiyi artıb”, - deyə BEA qeyd edir.

## Şirkətlərin gəlirləri azalır

Hörmüz boğazında davam edən qeyri-müəyyənlik, xüsusilə də təhlükəsizliklə bağlı problemlərin qalması daşıma şirkətlərini ehtiyatlı davranmağa sövq edir. Verilən məlumatlara görə, son vaxtlarda boğazdan gün ərzində cəmi 5-10 gəmi keçir. Halbuki, eskalasiyadan əvvəlki dövrdə Hörmüz boğazından sutkalıq rejimdə 130-140 gəmi keçirdi.

Təbii ki, yaranmış vəziyyət səbəbindən daşıma şirkətlərinin gəlirləri azalır. Təhlillər göstərir ki, hərbi risklər və gəmilərin Afrika (Ümid burnu) ətrafına yönləndirilməsi qlobal miqyasda gəmiçilik şirkətlərinə gündəlik 340 milyon avrodan çox əlavə yanacaq yükü yaradır. Eyni zamanda, müharibə riskli sığorta haqları (war-risk insurance) əvvəlki səviyyələrlə müqayisədə dəfələrlə bahalaşıb, hər gəmi keçidi üçün sığorta dəyəri gəmi qiymətinin 5-10 faizinə qədər yüksəlib.

Almaniyanın “Hapag-Lloyd” şirkəti ikinci rübdə Hörmüz boğazının bağlanmasının ona 600 milyon dollara başa gəldiyini açıqlayıb. “ƏL-Cəzirə”nin yaydığı xəbərdə bildirilir ki, şirkət xalis mənfəətinin ötən ilin eyni dövrü ilə müqayisədə 306 milyon dollardan 83 milyon dollaradək azaldığını elan edib.

“Hapag-Lloyd” əlavə edib ki, Asiyadan olan böyükhəcmli ixrac və ABŞ-da artan tələbat Yaxın Şərqdəki fasilələrin səbəb olduğu itkiləri qismən kompensasiya edib. Boğazın bağlanmasından sonra gəmi yanacağı, sığorta, saxlama, marşrutun dəyişdirilməsi və daxili nəqliyyat üçün yaranan əlavə xərclər səbəbindən şirkətin əməliyyat mənfəəti 167 milyon dollardan 153 milyon dollara düşüb.

Qeyd edək ki, Almaniyanın nəhəng gəmiçilik şirkəti olan “Hapag-Lloyd” dünyanın ən böyük konteyner daşıma şirkətlərindən biridir.

Hörmuz ətrafında davam edən qeyri-müəyyənliyin yaratdığı çətinliklər həmçinin ABŞ şirkətlərindən də yan ötmür.Bir qədər bundan əvvəl ABŞ-ın “Spirit Airlies” şirkəti fəaliyyətini dayandırdığını bəyan edərək bütün reysləri ləğv edib. Bəyanatda bildirilib ki, aviasiya kerosininin həddindən artıq bahalaşması şirkətin gəlirlərini heçə endirib. Ağ Ev administrasiyası şirkətə 500 milyon dollar ayırsa da, şirkətin maliyyəyə vəziyyəti sabitləşmir. Çünki bütün gəlirlər yanacaq almağa sərf olunur, digər xidmətlərə və əməkdaşlara məvacib ödəməyə vəsait qalmır. Bu, ABŞ-a müharibə zamanı dəyən böyük iqtisadi zərbədir.

## Avropada təbii qazın qiymətində kəskin artım

Avropada təbii qazın qiyməti mart ayından bəri ən yüksək səviyyəyə çatıb.

“Spiegel” nəşrinin məlumatına görə, Niderlandın TTF habında qaz fyuçersinin qiyməti meqavat/saat üçün 64,60 avro təşkil edib. Bu, martın ortalarından bəri qeydə alınan ən yüksək göstəricidir.

Qazın bahalaşmasına Hörmüz boğazında ticarət gəmilərinə hücumlarla bağlı narahatlıqlar və Körfəz bölgəsində tədarükün tezliklə normallaşmasının mümkün olmaması təsir göstərir. Son iki həftədə qazın qiyməti 20 faizdən çox artıb. İran Hörmüz boğazının açılması üçün ABŞ ilə iyunun ortalarında imzalanmış çərçivə sazişinin icrasını tələb edir.

Qiymət artımı Avropada qaz anbarlarının doluluq nisbətinin ötən illə müqayisədə aşağı olduğu vaxta təsadüf edir. “Gas Infrastructure Europe”nin (GIE) məlumatına görə, Avropadakı anbarların doluluq nisbəti hazırda 61,40 faiz, Almaniyada isə 50,06 faizdir. Ötən ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 74 və 67 faiz olub.

Almaniyanın Qaz Magistral Şəbəkəsi Operatorları Assosiasiyası (FNB Gas) bildirib ki, ölkədə noyabrın 1-dək qanunla müəyyən edilmiş qaz ehtiyatı səviyyəsinə çatmaq artıq çətin görünür. Hətta qaz anbarlarının sutkada 1,2 TVt-saat (TWh) sürətlə doldurulması belə tələb olunan göstəriciyə çatmağa kifayət etməyə bilər.

## Qlobal neft tədarükünə və tələbatına dair proqnozlar

Bu arada qlobal neft tədarükü və tələbatına dair proqnozlar açıqlanıb. ABŞ-ın Enerji İnformasiya Administrasiyasının məlumatında bildirilir ki, bu il qlobal neft tədarükünün gündəlik orta hesabla 100 milyon 820 min barel, qlobal neft istehlakının isə sutkada 102 milyon 730 min barel olacağı proqnozlaşdırılır. Gələn il isə qlobal tədarükün gündəlik orta hesabla 109 milyon 740 min barelə, tələbatın isə sutkada 104 milyon 960 min barelə çatacağı gözlənilir.

“Qlobal neft istehlakının bu il ötən illə müqayisədə təxminən 1,2 milyon barel azalacağı nəzərdə tutulur. Bu azalmanın təxminən 800 min bareli OECD-yə üzv olmayan ölkələrin payına düşəcək. OECD-yə üzv olmayan ölkələrdə gündəlik neft istehlakının cari ildə 58 milyon 100 min bareldən 57 milyon 200 min barelə enəcəyi proqnozlaşdırılır.

Bundan başqa, qlobal neft tələbatının gələn il bərpa olunacağı və təxminən 2,2 milyon barel artacağı gözlənilir. Bu göstərici 2025-ci ilin orta səviyyəsindən sutkada təxminən 1 milyon barel yüksəkdir”, - deyə EIA qeyd edir.

## Hörmüzün əhəmiyyəti azalacaq?

Qlobal iqtisadiyyatın Hörmüz boğazında yaranan qeyri-məyyənlikdən ciddi şəkildə təsirləndiyi bir vaxtda Donald Trampdan sensassiya təsiri bağışlayan açıqlama gəlib. ABŞ Prezidenti bildirib ki, çoxsaylı boru kəmərlərinin tikintisi və alternativ neft tədarükü marşrutlarının inkişafı səbəbindən gələcəkdə Hörmüz boğazı az əhəmiyyətli olacaq. D.Tramp bu barədə Ağ Evdə jurnalistlərin suallarını cavablandırarkən bildirib.

Neftin qiymətindən danışan Amerika lideri qeyd edib ki, ABŞ-in İrana qarşı müharibəsinə baxmayaraq, neftin qiyməti indi bir barel üçün 84-85 dollardır. Onun sözlərinə görə, bunun səbəblərindən biri də Hörmüz boğazından böyük həcmdə neftin keçməsidir. “Ancaq bundan əlavə, insanlar düşünmədikləri alternativ variantları tapdılar - Texas, Alyaska, Luiziana və digər enerji hasilatı yerlərində. Bununla yanaşı, çoxlu sayda boru kəmərləri tikilir. Söhbət rekord saydan gedir. Buna görə düşünürəm ki, Hörmüz boğazı əvvəlki kimi vacib olmayacaq”, - deyə Tramp vurğulayıb.

Həqiqətən də, hazırda dünya ölkələri alternativlər tapmağa ciddi şəkildə səfərbər olublar. Söhbət digər regionlarda neft-qaz istehsalının artırılmasından, enerji transformasiyasının sürətləndirilməsindən və əlbəttə ki, daşımaların yeni marşrutlara yönəldilməsindən gedir. D.Trampın vurğu etdiyi kimi, ABŞ-ın Texas, Alyaska və Luiziana kimi bölgələrində enerji istehsalı sürətlə artır. Birləşmiş Ərəb Əmirlikləri Hörmüz boğazından yan keçmək üçün Habshan-Fuceyra boru xəttini inşa edir. Bu layihənin ölkənin ixrac gücünü əhəmiyyətli dərəcədə artıracağı gözlənilir. Səudiyyə Ərəbistanı Fars körfəzindən Qırmızı dəniz sahillərinə neft nəql edən Şərq-Qərb mövcud magistral boru xətlərinin imkanlarından maksimum istifadə etməyə çalışır. Eləcə də, Türkiyə və digər maraqlı tərəflər boğazdan asılılığı azaltmaq üçün alternativ quru və dəniz marşrutları üzərində işləyirlər. Verilən məlumatlara görə, hazırda alternativ boru kəmərlərinin ümumi ötürmə gücü gündəlik təxminən 3.5-5.5 milyon barel qiymətləndirilir. Mütəxəssislər bildirirlər ki, bu kəmərlər riskləri azaltsa da, hələlik Hörmüz boğazından keçən ümumi neft həcmini tam şəkildə əvəz etmək gücünə malik deyillər. Buna görə də Hörmüz boğazında eskalasiyadan əvvəlki durumun bərpası ən yaxşı variant sayılır.

***Mübariz ABDULLAYEV***

## ABŞ Qəzzada sabitləşdirmə qüvvələrinə 206 milyon dollar vəsait ayıracaq



Tramp administrasiyası Qəzza zolağında Beynəlxalq Sabitləşdirmə Qüvvələri (ISF) üçün 206 milyon dollardan çox maliyyələşdirmə ayrılması barədə Konqresə məlumat verib.

AZƏRTAC xəbər verir ki, bu barədə “Reuters” agentliyi məlumat yayıb.

Dövlət Departamentinin bildirişlərinə görə, ISF-in avadanlığı, infrastruktur, nəqliyyat və əməliyyat xərcləri üçün 200 milyon dollar ayrılıb. Amerika zirehli texnikalarını dəstəkləmək üçün onların modernləşdirilməsinə əlavə 6 milyon dollar ayrılması planlaşdırılır.

Agentliyin qeyd etdiyi kimi, bu, Trampın Qəzza zolağını yenidən qurmaq planı çərçivəsində ABŞ-dan ilk əhəmiyyətli maliyyələşdirmədir.

## İsveçrə Rusiyaya qarşı sanksiyaları genişləndirib

İsveçrə Federal Şurası Rusiyaya qarşı Avropa İttifaqının 20-ci sanksiya paketindən əlavə tədbirləri təsdiqləmək qərarına gəlib.

AZƏRTAC xəbər verir ki, bu barədə İsveçrə hökuməti açıqlama yayıb.

Hökumətin açıqlamasına görə, məhdudiyyətlər avqustun 20-dən qüvvəyə minib.

Sənədə əsasən, Bern Rusiyada yerləşən qaz daşıyıcılarına, buzqıran gəmilərə və LNG terminallarına xidmət göstərməyə qadağalar tətbiq edəcək, eləcə də tankerlərin Rusiyaya satışına qadağa qoyacaq. Bundan əlavə, üçüncü ölkələrə tankerlərin satışı üzrə müqavilələrə artıq onların Rusiyada təkrar satışını qadağan edən bənd daxil edilməlidir.



Maliyyə sektorunda kriptovalyutaların mübadiləsi və köçürülməsi üçün Rusiya platformalarından istifadəyə, eləcə də müəyyən rəqəmsal aktivlərin inkişafına dəstək verilməsinə də qadağa qoyulub.

Mayın 22-də Bern Aİ-nin Rusiya əleyhinə sanksiyalarının 20-ci paketinin birinci hissəsini tətbiq edərək, Rusiyanın hərbi-sənaye kompleksi və enerji sektoru ilə əlaqəli 115 fiziki və 60 hüquqi şəxsi sanksiya siyahısına əlavə etmişdi.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Unudulmayan faciələr

## Terrorun coğrafiyası dəyişsə də, mahiyyəti dəyişmir...

Terrorizm insan həyatına, cəmiyyətin təhlükəsizliyinə və xalqlar arasında sülhə qarşı yönəlmiş ən amansız təhdidlərdən biridir. Tarix boyu dünyanın müxtəlif bölgələrində minlərlə günahsız insanın həyatına son qoyulub, saysız-hesabsız ailələrin taleyində sağalmaz yaralar açılıb, bəşəriyyətin yaddaşında dərin izlər buraxılıb. Müxtəlif dövrlərdə törədilmiş terror aktlarının izləri göstərir ki, terrorun coğrafiyası dəyişsə də, onun mahiyyəti dəyişmir: günahsız insanların həyatına qəsd edilir, ailələr parçalanır, cəmiyyətə qorxu hissi aşılanır və insanların sabaha olan inamı sarsıdılmağa çalışılır. Buna görə də terrora qarşı mübarizə yalnız təhlükəsizlik strukturlarının və dövlətlərin vəzifəsi deyil, bütün beynəlxalq ictimaiyyətin ortaq məsuliyyəti kimi qəbul edilməlidir.

21 avqust - Terror Qurbanlarının Beynəlxalq Anım Günü də məhz belə günlərdəndir. Bu tarix terror qurbanı olmuş insanların xatirəsini yad etməklə yanaşı, insanlığın qarşısında dayanan ən mühüm vəzifələrdən birini - zorakılığın qarşısını almaq, terrorizmin mahiyyətini düzgün dərk etmək məsuliyyətini xatırladır.

### Yetərincə səy göstərmirlər...

Hazırda bir çox ölkələr terror aktlarına məruz qalır, lakin qurbanların sayı əsasən bir neçə ölkədə cəmləşib. İnkişaf etmiş dövlətlər də bu qlobal bəla ilə mübarizə üçün yetərincə səy göstərmirlər. Terror qurbanlarına maddi, mənəvi və psixoloji yardım göstərilməsi arzuolunan səviyyədə deyil.

BMT-nin bəyanatında qeyd olunur ki, terror qurbanlarının dəstəklənməsi və onların hüquqlarının müdafiəsi hər bir dövlətin vəzifəsidir. Təşkilatın Baş Assambleyası iki ildə bir dəfə Qlobal Antiterror Strategiyasının icmalını təqdim edir və 21-ci əsrdə bəşəriyyətin ən ağrılı problemi olan terrorizmə qarşı mübarizə istiqamətlərini müəyyən edir.

BMT-nin bu məsələyə dair A/RES/72/284 qətnaməsində vurğulanır ki, təşkilata üzv dövlətlər terrorizmə qarşı mübarizəni öz milli strategiyalarına daxil etməli, qurbanlara hər cür yardım göstərməlidirlər. Bundan başqa, Baş Assambleya bu problemlə bağlı daha üç qətnamə qəbul edib.

### Terrora ən çox məruz qalan ölkələr

Terrorizm tarix boyu dünyanın müxtəlif coğrafiyalarında dövlətlərin və cəmiyyətlərin üzləşdiyi ən ciddi təhlükələrdən biri olub. Müxtəlif dövrlərdə terror hücumlarının intensivliyi və xarakteri dəyişsə də, xüsusilə uzunmüddətli münaqişələrin, siyasi qeyri-sabitliyin və silahlı qarşıdurmaların hökm sürdüyü ölkələr terrorizmin ən ağır nəticələri ilə üzləşib.

Əfqanıstan uzun illər ərzində terrorizmin ağır nəticələrini yaşayan ölkələrdən biri olub. Bu ölkədə terrorizm insanların təhlükəsizlik hissinə və normal həyat qurmaq imkanlarına ciddi təsir göstərən əsas problemlərdən birinə çevrilib.

Pakistan da tarixinin müxtəlif mərhələlərində terror hücumlarından ciddi zərər çəkən dövlətlər sırasında olub. Ölkənin müxtəlif bölgələrində həyata keçirilən hücumlar nəticəsində hərbçilərlə yanaşı, çoxsaylı dinc sakinlər də həyatını itirib, terror təhlükəsi uzun müddət ictimai və siyasi gündəmin əsas məsələlərindən biri olaraq qalıb. Xüsusilə məktəblərə, ibadət yerlərinə və ictimai məkanlara qarşı həyata keçirilən hücumlar terrorizmin cəmiyyət üçün nə qədər dağıdıcı nəticələr doğura bildiyini göstərib.

Hindistanın da müxtəlif dövrlərdə çoxsaylı terror aktları ilə üzləşdiyi məlumdur. Böyük şəhərlərdə törədilən hücumlar, ictimai nəqliyyatın və insanların sıx toplaşdığı məkanların hədəfə alınması nəticəsində çox sayda insan həyatını itirib.

Yaxın Şərqin bir sıra ölkələri terrorizmin ən ağır nəticələri ilə üzləşib. Suriya bu baxımdan xüsusilə diqqət çəkir. Uzunmüddətli müharibə və siyasi böhran şəraitində müxtəlif silahlı qrupların fəaliyyəti, terror aktları və zorakılıq nəticəsində milyonlarla insan öz evlərini tərk etmək məcburiyyətində qalıb, ölkənin yaşayış məntəqələri və infrastrukturu ciddi dağıntılarla üzləşib. Suriyanın timsalında terrorizmin yalnız birbaşa insan tələfatına deyil, həm də miqrasiya, iqtisadi böhran və sosial parçalanma kimi uzunmüddətli problemlərə gətirib çıxardığı aydın görünür.

Afrika qitəsində Nigeriya terror təhlükəsindən ciddi zərər çəkmiş ölkələrdən biridir. Xüsusilə, Boko Haram kimi silahlı terror qruplaşmalarının fəaliyyəti nəticəsində ölkənin şimal-şərqində çoxsaylı insan həyatını itirib, yaşayış məntəqələri dağıdılıb və yüz minlərlə insan təhlükəsizlik səbəbindən öz yaşayış yerlərini tərk edib. Terrorun bu regionda yaratdığı humanitar fəsadlar uzun illər ərzində beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olub.



### Azərbaycanın yaddaşında terrorun acı izləri

Xalqımız da terrorun ağrısını və onun yaratdığı faciələri tarixin müxtəlif mərhələlərində ağır şəkildə yaşayıb. Bu baxımdan 21 avqust bizim üçün də yalnız beynəlxalq əhəmiyyət daşıyan təqvim günü deyil, terrorun insan həyatına vurduğu sağalmaz yaraları düşünmək, faciələr zamanı həlak olan insanların xatirəsini ehtiramla yad etmək və gələcək nəsillərə sülhün, təhlükəsizliyin, insan həyatının qorunmasının əhəmiyyətini anlatmaq üçün mühüm fürsətdir.

Ermənistan-Azərbaycan münaqişəsi dövründə Azərbaycanın müxtəlif yaşayış məntəqələrində dinc əhaliyə qarşı törədilən zorakılıq hadisələri, terror aktları və digər ağır cinayətlər cəmiyyətin təhlükəsizliyinə ciddi zərbə vurub. Mülki əhalimizin hədəfə alınması xüsusilə ağır nəticələr doğurub, qadınların, uşaqların və yaşlı insanların da bu faciələrdən kənarda qalmaması xalqımızın yaddaşında dərin izlər buraxıb.

1990-cı illərin əvvəllərində baş vermiş faciələr içərisində Xocalı qətliamı xüsusi yer tutur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda çox sayda dinc sakin öldürülüb, insanların bir qismi əsir götürülüb, digərləri isə ağır şəraitdə doğma yurdlarını tərk etməyə məcbur olub. Xocalı faciəsi yaddaşımızda yalnız böyük insan itkisi ilə deyil, həm də münaqişə zamanı mülki əhalinin üzləşdiyi dəhşətlərin simvolu kimi yaşayır.

Terrorun izləri yalnız bir faciə ilə məhdudlaşmır, çünki müxtəlif illərdə Azərbaycanın şəhər və rayonlarında baş vermiş partlayışlar və terror aktları da dinc insanların həyatına son qoyub. Bakı metrosunda, müxtəlif ictimai yerlərdə və yaşayış məntəqələrində törədilən hücumlar nəticəsində günahsız vətəndaşlar həyatını itirib, çoxsaylı insanlar yaralanıb.

Terror Qurbanlarının Beynəlxalq Anım Günü bir daha xatırladır ki, müharibələr, münaqişələr və terror aktları nəticəsində itirilən həyatları geri qaytarmaq mümkün olmasa da, həmin insanların xatirəsini yaşatmaq, onların ailələrinin ağrısını bölüşmək və gələcək nəsillər üçün daha təhlükəsiz dünya qurmaq mümkündür. Bu baxımdan həmin gün yaddaş, ehtiram və həmrəylik günü olmaqla yanaşı, sülhə çağırışın, insan həyatına hörmətin və terrorizmin bütün formalarına qarşı qətiyyətli mövqenin ifadəsidir.

***Yeganə BAYRAMOVA***

# 49 min müraciət, 2 min könüllü - Formula 1 Azərbaycan Qran-Prisinin yubiley yarışına hazırlıq





Azərbaycan Qran-Prisinin yubiley ilində - 10-cu yarışın keçirilməsinə hazırlıqlar davam edir. Dünyanın ən böyük və irimiqyaslı beynəlxalq idman tədbirlərindən birinin təşkilində mühüm rol oynayan könüllülər də yarış həftəsonunun əsas iştirakçıları sırasında yer alacaqlar.

Bu il sentyabrın 24-dən 26-dək keçiriləcək yarışın təşkilinə təxminən 2 min könüllünün cəlb olunması nəzərdə tutulur.

2026-cı il Formula 1 Azərbaycan Qran-Prisinin könüllülük proqramı üçün də əlamətdardır. Formula 1-in Azərbaycanda keçirilməsinin 10-cu ildönümü ilə yanaşı, könüllülük proqramı da özünün yubiley Qran-Prisinə hazırlaşır. Ötən illər ərzində proqrama maraq nəzərəçarpacaq dərəcədə artıb. 2016-cı ildə qeydiyyatdan keçən namizədlərin sayı təxminən 7 min olduğu halda, bu il onların sayı rekord həddə - 49 minə çatıb. Üstəlik, bu göstərici cəmi 72 saat ərzində qeydə alınıb.

Geridə qalan müddət ərzində Bakıda keçirilən Formula 1 yarışlarının təşkilində 20 mindən çox könüllü iştirak edib. Komandanın əsas hissəsini gənclər təşkil etsə də, proqram müxtəlif yaş qruplarından olan insanları bir araya gətirir. Bu illər ərzində proqramın ən gənc iştirakçısının yaşı 16, ən yaşlı könüllünün yaşı isə 75 olub.

Proqramın inkişafında 2016-cı ildən fəaliyyət göstərən Bakı Şəhər Halqası Akademiyasının (BŞH Akademiyası) xüsusi rolu var. Akademiyanın fəaliyyəti yalnız könüllülərin yarış həftəsonunda üzərlərinə düşən vəzifələrə hazırlanması ilə məhdudlaşmır. Burada iştirakçıların şəxsi və peşəkar inkişafına da xüsusi diqqət yetirilir. Hazırlıq prosesi ixtisaslaşmış təlimləri və praktiki məşğələləri əhatə edir.

Əldə olunan bilik və təcrübə bir çox iştirakçı üçün gələcək peşəkar inkişafın əsasını təşkil edir. Son 10 il ərzində könüllü kimi fəaliyyətə başlayan 400-dən çox gənc daha sonra Bakı Şəhər Halqasının komandasına qoşulub.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin İnsan Resursları və İşçi Qüvvəsi Departamentinin rəhbəri Arifə Əliyeva bildirib ki, builki nəticələr proqramın son 10 ildə keçdiyi inkişaf yolunu aydın şəkildə göstərir: “Bakı Şəhər Halqası Əməliyyat Şirkəti olaraq, bu il Formula 1 Azərbaycan Qran-Prisinin 10 illiyinə hazırlaşırıq və sentyabr ayının son həftəsi bizim üçün təqvimdə xüsusilə əlamətdar olacaq. Hazırlıq mərhələsinin mühüm etaplarından biri olan Könüllü Proqramımıza müraciətlər bu il artıq 10-cu dəfə aprel ayında açıq elan olundu və 3 günün sonunda 49 000-dən çox müraciət qəbul etdik. Dönüb geriyə baxsaq, nə qədər böyük bir yol qət etdiyimizi görərik. 2016-cı ildən bu günə qədər ümumilikdə 20 000-dən çox gənc Formula 1 Azərbaycan Qran-Prisinin təşkilinə könüllü olaraq cəlb edilib. BŞH Akademiyasının yaratdığı bu fürsətdən yararlanan və tədbirin təşkili mərhələlərində təcrübə qazanan 400-dən çox gəncimiz sonrakı illərdə işçi qüvvəsi olaraq tədbirin təşkilinə cəlb edilib. Biz insan kapitalı yaratmaqda maraqlıyıq və bu il bu rəqəmlərin daha da artacağından əminik”.

Onun sözlərinə görə, proqramın şəffaflığı və əlçatanlığı bu nəticələrin əldə olunmasının əsas səbəblərindəndir: “Hazırda BŞH Akademiyasında təlimlər mərhələsi yekunlaşmağa doğru gedir. Paralel olaraq, dünyanın müxtəlif ölkələrindən müraciət edən 1 550-yə yaxın beynəlxalq könüllünün onlayn müsahibə və təlim mərhələlərini həyata keçiririk. BŞH inklüziv bir mühit yaradıb. Hər il beynəlxalq könüllülərdən daxil olan müraciətlərin sayının artması, builki göstəricinin isə indiyədək ən yüksək həddə çatması bunu birbaşa göstərir. Könüllülərimiz fəaliyyətlərinə uniforma və akkreditasiya əməliyyatları ilə start verəcəklər. Bu il ümumilikdə 2 000-ə yaxın könüllünün Qran-Pridə iştirakı nəzərdə tutulur”.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4498**
**Sifariş: 1078**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova